# Z İ Y A R Ə T Ç İ

***T u n c ə r   C ü c ə n o ğ l u***

*(2 hissəli qara komediya)*

Anamın timsalında dünyanın bütün analarına...

***Tərcümə edən: ELVİN NURİ***

**Bu tərcüməni Tuncər Cücənoğlunun ruhuna, xatirəsinə ithaf edirəm...**

**E. NURİ**

**İ ş t i r a k   e d i r l ə r :**

**ADAM** – ***35 yaşlarında psixiatr, danışılan hər şeyi başa düşür, ancaq gözləri ilə reaksiya, cavab verə bilir.***

**QADIN** – ***30 yaşlarında Adamın arvadı. İş yerlərinin birində işləyir. Sağlam və gözəldir.***

**ANA** – ***70 yaşlarında, Adamın anası.***

**ZİYARƏTÇİ** – ***40 yaşlarında, Ölüm mələyi (Əzrayıl). Olduqca yaraşıqlı.***

**TELEFONDAKI SƏS** – ***Səs tonu olduqca təsirli arvadbaz.***

**Səhnə tərtibatı :** *Müasir bir xəstəxana palatası. Qalın pərdələri olan pəncərə. Xəstə yatağının baş tərəfi qarşıdakı divarda olacaq formada yerləşdirilib. Mühafizəçinin gecə qala bilməsi üçün kreslo – divan... Dəhlizə və vanna otağına açılan bir qapı. Müasir xəstəxana palatasında nə olmalıdırsa, lazımi əşyalar.*

**Yer:** *Hər hansısa bir ölkə;*

**Zaman:** *bizim günlər;*

## B İ R İ N C İ  H İ S S Ə

*Otaqda Qadın və Adam var. Adamın gözləri qapalıdır. Hərəkətsiz yatır. Qadın narahatdır. Qadın Adamın əlindən dəqiqliklə tutur. Düşünür... Nə isə etmək xatirinə radionu yandırır. Eşidilən instrumental bir hissədir. Qadın saatına baxır. Otaqda gəzişməyə başlayır. Telefon çalır.*

QADIN. *(Telefonun dəstəyini sürətlə qaldırır)* Alo.

SƏS. Salam!

*(Ziyarətçi daxil olur, səssizcə qulaq asır.)*

QADIN. Siz idiz?!

SƏS. Bəli. Narahat etmirəm ki?

QADIN. Bu, nə deməkdir?!

SƏS. Səsiniz bir az şey gəldi... Tez-tez zəng vurmağım xoş deyilsə, xahiş edirəm, deyin.

QADIN. Əstafurullah! Düşdüyüm vəziyyəti bilirsiniz.

SƏS. Xəstəmiz necədir?

QADIN. Dəyişən heç nə yoxdur. Dörd gün qabaq necə görmüşdünüzsə, elə elədir. Təxminən bir saat əvvəl professor gəldi.

SƏS. Necə də gözəldir... Maraqlanırlar.

QADIN. Düzünə qalsa, ərimin həkim olması işə yarayır. Bütün tibb işçiləri pərvanədirlər. Biri gedib, biri gəlir. Baxırlar, araşdırırlar...

SƏS. Yaxşı ki, o vəziyyətə düşən mən deyiləm. Həkimləri axtar ki, tapasan... Ona görə ki, həkim deyiləm.

QADIN. *(Gülümsəyir)* Xahiş edirəm, zarafata eləməyin.

SƏS. Nə xoş mənə ki, səni güldürdüm.

QADIN. *(Ağlamamağa çalışır.)* Çox, çox...

SƏS. Xahiş edirəm, xahiş edirəm...

QADIN. *(Özünə hakim olur)* Əsəblərim pozulub. Həkim dedi ki, beynə gedən damarları laxta tutub. Əgər bədən laxtanı çıxartmağı bacarmasa, xilas olmağına ümid yoxdur. Həmişəlik belə qalacaq.

SƏS. Xahiş edirəm... Sizin əzab çəkməyinizə dözə bilmirəm. Görərsiz, ayağa qalxacaq. Ona görə ki, o gəncdir.

QADIN. Bilmirəm.

SƏS. Əgər pərişanlıq, üzüntü onun halını yaxşılaşdırsaydı, mən də pərişan olardım.

QADIN. Düz dörd gündür burdayam. Gündüzləri heç olmasa, gələn-gedən əskik olmur. Ən azından dəhlizlərdə adamlar fırlanır. Bəs, gecələr? Heç yerdə səs-səmir yox... O və mən... Əgər radio olmasaydı, dəli olardım.

SƏS. Bir də mənim zənglərim. Deməli, sizə bundan da çox zəng vurmalıyam.

QADIN. Təşəkkür edirəm.

SƏS. Hələ anasından xəbər çıxmayıb?

QADIN. Bu gecə gələcək. Gələn kimi evə gedəcəyəm. Dörd gündür duş qəbul eləmirəm, bilirsiz?

SƏS. Əgər anası gəlsə, sabah işə mütləq gəlməlisiniz.

QADIN. Yoxsa, nə isə olub?

SƏS. Bəlkə də, deyəcəksiniz ki, naz edir, minnət qoyur. Bizim heyət rəhbəri apardığım bir yazını imzalayanda, “iqtisadiyyat təbii həyatda” dedi. Sonra mənalı formada əlavə elədi ki, “bu şərtlərlə bu qədər çox sayda insanı bir yük kimi hələ nə qədər kürəyimizdə daşıyacağıq?”

QADIN. Bunun mənimlə nə əlaqəsi ola bilər? Nəticədə, bir həftədir ki, işə gəlmirəm. Şəxsi vəziyyət olduğunu bilirlər.

SƏS. Bəlkə də, xətrinə dəymədir. “Təbii həyat” deyimi məndə belə bir assosiasiya oyada bilər. Lakin yenə də diqqətli olmalıyıq. Bilirsiniz ki, qanuni icazəsindən istifadə edən yeddi nəfərin işinə altı ay ərzində xitam verdilər. Əslində, hiss elətdirmədən, sizə aid işlərin böyük bir hissəsini yekunlaşdırdım, amma yenə də... Siz olmadan da işlərin gedə biləcəyini gərək bilməsinlər. Başa sala bilirəm? Sabah

mütləq gəlməlisiniz...

QADIN. Gələcəyəm.

SƏS. Anası gələndə, bizə gələ bilərsiniz. Bu gecə...

QADIN. Başa düşmədim...

SƏS. Rahat formada oturub, dərdləşərik.

QADIN. Çox, çox səhv bir şey olar. *(Kübarca)* Üstəlik, duş qəbul eləməliyəm...

SƏS. Bizdə duş qəbul edə bilərsiniz...

QADIN. Yox, yox. Olduqca səhv bir hərəkət olar.

SƏS. Yoxsa, mənə güvənmirsiniz?!

QADIN. Bunun güvənməklə heç bir əlaqəsi yoxdur. Evə getməliyəm.

SƏS. Yenə də fikrinizi dəyişdirsəniz, zəng elə bilərsiniz. Çəkinməyin, yaxşı?!

QADIN. Zənginiz üçün təşəkkür edirəm.

SƏS. Hələlik.

*(Qadın yavaş-yavaş dəstəyi yerinə qoyur. Amma uzun müddət əlini çəkmir.)*

ZİYARƏTÇİ. *(Səsi)* Axşamınız xeyir!

QADIN. *(Ziyarətçini görəndə, sanki, lüt imiş kimi bir hiss keçirərək, əlləri ilə çarpaz şəkildə döşlərini - sinəsini örtür.)* Kimi axtarırsınız? *(Qorxur)* Siz...

ZİYARƏTÇİ. Ərinizin dostuyam.

QADIN. Axşamınız xeyir!

ZİYARƏTÇİ. Oturmaq olar?

QADIN. *(Qorxmuş halda)* Buyurun.

*(Ziyarətçi əlindəki çexolu divanın yanına qoyur. Adama baxır.
Qadın Ziyarətçini tanımağa çalışır.)*

ZİYARƏTÇİ. Allah kömək olsun!

QADIN. Çox sağ olun!

ZİYARƏTÇİ. Bu gün xəbər tutmuşam. Çox pis oldum. O saat bir avtobusa oturub gəldim. *(Bir adekolon şüşəsi uzadır, Qadın götürür.)*

QADIN. Təşəkkür edirəm. Bu saatda ziyatərçi qəbul eləmirlər. İçəriyə necə keçmisiniz?

ZİYARƏTÇİ. Xəstəxananın qapısındakı nəzarətçilər də insandır. Həyat yoldaşları, uşaqları var. Bu günlər də dolanmaq asan deyil.

QADIN. Başa düşmədim...

ZİYARƏTÇİ. Bu fədakar adamları qorumaq lazımdır. Bu saatda hamı evində televizor seyr edəndə, onların vəzifə icra etməsi fədakarlıqdır. Bunun qarşılığını görməlidirlər. Yoxsa, siz bu cür kömәkləri dəstəkləmirsiniz?!

QADIN. Belə başa düşdüm ki, rüşvət vermisiniz.

ZİYARƏTÇİ. Nədirsə... O dediyinizi verməsəydim, içəri girə bilməzdim. Bir sözlə, dostumu görə bilməzdim. Altı saatlıq yoldan sonra belə bir tragediyanı yaşamaya bilməzdim.

QADIN. Bağışlayın, amma sizi tanıya bilmədim.

ZİYARƏTÇİ. Mən sizi tanıyıram.

QADIN. Amma heç tanış olmamışıq. Mənə elə gəlir, toyumuza da gəlməmisiniz.

ZİYARƏTÇİ. Hə, gələ bilməmişdim. Əriniz mənim uşaqlıq dostumdur. Futbol oynayanda, həmişə qapıçı dayanırdı. Olduqca da bacarıqlı idi. Pişik kimi tullanıb, künclərdən topları çıxardırdı. Bir futbol ulduzu ola bilərdi. Heç bilirsiz, ulduz futbolçu olmaq nə deməkdir? Çoxlu pul və məşhurluq... Maşınlar... Evlər... Xalqın sitayiş, pərəstiş etmə hissini əldə etmək üçün ən pik nöqtə. İndi bu yaşlarda qeyri-adi bir yubileylə tap çıxartma və tutma hərəkətindən ayrılıb, böyük bir jurnalın idman yazarı ola bilərdi. Ya da şəxsi televiziyalardan birində futbol şərhçisi ola bilərdi. Necə də gözəldir... *(Əlində, sanki, bir mikrafon varmış kimi canlandırır.)* İndi hörmətli şərhçinin fikirlərini alaq. Deyə bilərsinizmi, bu mövqedə ofsayd varmı? Bu, bir çaşdırmadı, yoxsa, topa müdaxilə? Rəqib komandanın şortunu aşağı salana necə bir cəza lazımdır? Penaltı vurulmamışdan əvvəl qapıçı tullanıb, qolun qarşısını alarsa, təkrar atılırmı? Ya da topun qolla çiynin birləşdiyi yerə dəyəndə,

cəza zərbəsi vurulurmu? Əgər yoldaşınız milyonlarla tamaşaçını bu və ya buna bənzər mövzuları açıq-aydın başa salsaydı, aşağılayıcı bir iş gördüyü hesab olunurmu? Unutmayaq ki, hər şey insanın xoşbəxtliyi üçündür. Amma o, həkimliyi seçdi, yəni fədakarlıq elədi. Xəstələrə yalnız əczaçıların oxuya biləcəyinə öyrəşilmiş resept yazıb, qayğı ilə onları sağaltmağa çalışaraq, həyatının ən gözəl beş ilini heç də uyğun olmayan qaydalarla keçirdi. Ödəyə bilmədiyi kirayələr, vergi borcları... Siz daha yaxşı bilərsiniz, necə dəfə müayinə mərkəzini bağlamaqla üz-üzə qaldı?! Ginekoloq olsaydı, vəziyyət dəyişə bilərdi, amma ən böyük səhvi o oldu ki, psixiatr olmağı seçdi.

QADIN. Çox çətinlik çəkdik.

ZİYARƏTÇİ. Bunlar sizin bildikləriniz... Bəs, demədikləri? İçində saxladıqları... Yuxusuz gecələr... Siz başqa bir qadın var, qorxusu ilə içinizi yeyəndə, o, gündəlik dərdlərlə əlləşirdi, çobalayırdı. Bir müfəttişin dəftərlərinizə sahib çıxmasındakı ümidsiz gözləntinin nə demək olduğunu siz bilirsiniz?

QADIN. Bir gecə, çarpayıda bir qadının adını sayıqlayırdı. Bilirsiz, ondan necə şübhələnmişdim?! Amma sayıqladığı adın bir xəstəsinin adı olduğunu biləndə...

ZİYARƏTÇİ. Əslində, müalicəxana açması səhv iş idi. Bir xəstəxanada işləməsi görəcəyi ən düzgün iş idi.

QADIN. Günlərlə axtardı, lakin tapa bilmədi. Fakültəni təzəlikcə bitirmişdi. Təcrübəsiz olduğu üçün iş tapa bilmirdi.

ZİYARƏTÇİ. Bu başlanğıcı böyük bir şəhərdə elədi. Balaca bir şəhərdə özümü sınaya bilərdi.

QADIN. Sınaya bilməzdi. Balaca yerlərdə adamların ruh həkiminə ehtiyacları yoxdur.

ZİYARƏTÇİ. Niyə? Kiçik yerlərdə qayda-qanunlar daha yaxşıdır?

QADIN. Bizim insanlar dişinin ağrımasını belə, artıq çıxarmaqdan başqa ayrı çarə qalmayanda, hiss edirlər.

ZİYARƏTÇİ. Bax, bu heç ağlıma gəlməyib. Yaxşı ki, açmamısınız. Qorxuram, onda yan-yana yatmış olardınız. Anası da ortanızda... Bir dəfəyə ikinizə də baxardı.

QADIN. Oğluna baxardı, amma mənə yox.

ZİYARƏTÇİ. Düz deyirsən. Bir anlıq yadımdan çıxdı ki, anası sizin üçün heç yaxşı şeylər fikirləşmir.

QADIN. Hə... Amma siz bütün bunları hardan bilirsiniz?

ZİYARƏTÇİ. Dedim axı, ərinizin dostuyam. Dostum idi, demək daha düz olar.

QADIN. *(Reaksiya verir)* Amma o yaşayır...

ZİYARƏTÇİ. Yaşayır? Əlini qaldırıb, bir stəkan su içə bilmir. Durub, içəri keçib, işəyə bilmir. Səni yatdırıb... Səninlə sevişə bilmir... Necə ki, düz-əməlli təşkilatçılığı olmayan bir cəmiyyətə "yaşayır" deyə bilmirik, buna da deyə bilmərik. Düz deyil?

QADIN. Nə əlaqəsi var?

ZİYARƏTÇİ. Əlaqəsi olmamış olar? Ən çətin ehtiyaclarını belə, sizin öhdənizə buraxmayıb? Özü ilə bağlı bir məsələdə cavab vermək bacarığı var? Xoşuna gəlməyən hadisəyə etiraz edə bilir?

QADIN. Siz inqilabçısız?

ZİYARƏTÇİ. Bunu hardan çıxartdız?

QADIN. Məktəbli olanda, hamı kimi mən də bu məsələrlə maraqlanmışdım.

ZİYARƏTÇİ. Yəqin ki, simpatiyanız vardı?

QADIN. Həmişə yoldaşlarım deyirdi ki, səndən heç vaxt inqilabçı olmaz. Məni "kiçik burjua" deyib, xarakterizə edərdilər. Realist hesab eləmirdilər.

ZİYARƏTÇİ. Mənə görə realistsiniz. Yoxsa, indi torpağın altında rahat bir həyata qovuşmuş olardınız. Ziddiyətsiz, bərabər və sülh içində bir həyat... Əlamətdar günlərdə dostlarınızın gətirdiyi qırmızı qərənfillərlə örtülü, gözəl görüntülü bir təpəcik. Necə də şairanə mənzərə, elə deyil? Bəlkə də, o gözəl, nəhayətsiz həyatınız mənim əlimdən olardı...

QADIN. Yoxsa, siz rəqib inqilabçısınız?

ZİYARƏTÇİ. Elə təəssürat bağışlayıram?

QADIN. Axırıncı dedikləriniz əvvəlkilərə ziddir.

ZİYARƏTÇİ. Xeyr, zid deyil.

QADIN. İnsan olmaq üçün birinci qaydaları sıralayırsınız.

ZİYARƏTÇİ. Düzdür. Özü ilə bağlı qərarlar qəbul edə bilməyən və reaksiya verə bilməyən insan, deməli, yaşamır.

QADIN. Yəni reaksiya verən insanlardan xoşunuz gəlir.

ZİYARƏTÇİ. Bəyənməkdən də çox razılaşıram.

QADIN. Amma onları öldürə biləcəyinizi deyirsiniz.

ZİYARƏTÇİ. O, mənim şəxsi işimdir. *(Zəif səslə)* Həmişə deyə bilmərik ki, valeh olunası işlər görürük.

QADIN. Bağışlayın, amma qəribə fikirləriniz var.

ZİYARƏTÇİ. "Qəribə" əvəzinə "real" sözünü işlətsəniz, məni daha çox sevindirmiş olarsınız. Əgər Marks bu günlərdə yaşasaydı, tədrisini yüz faiz əvvəlki dünyaya görə nizamlayardı. Üstəlik, yuxusunu sübut eləmək şansını da əldə edərdi. Çünki varlılar da, kasıblar da bir parça cibsiz kəfənlə bərabər bir dünyada görüşürlər. Savaşsız və istismarsız dünya yalnız torpağın altındadır. Yer üzündə bu mübarizəni aparanlara hörmət eləməmək bizdən asılı deyil. Onlara necə hörmət eləməyəsən? Mərd-mərdanə mübarizə aparırlar. Tez bir zamanda əvvəlki dünyadakı həqiqi, qanuni rejimə çarmaq üçün canlarını, ailələrini – hər şeylərini ortaya qoyurlar. Xahiş edirəm, dediklərimə qarşı diqqətli ol. Çünki işin sirri bundadır.

QADIN. Siz nə işlə məşğul olursunuz?

ZİYARƏTÇİ. Nə iş görə bilərəm?

QADIN. *(Özünü onun danışığının cəzb ediciliyinə alüdə edib)* Siz... Siz musiqiçisiniz.

ZİYARƏTÇİ. Niyə belə fikirləşirsiniz?

QADIN. *(Çexolu göstərir)* Bu, skripka deyil? Bəlkə də, saksafon.

ZİYARƏTÇİ. Nəticədə, bir alət olduğu doğrudur. Amma musiqi ilə əlaqəsi yoxdur.

QADIN. Dayanın! Qətiyyən deməyin. Sənətinizi tapacağam.

ZİYARƏTÇİ. Düşünmürəm... Amma cəhd edin. Sual da verə bilərsiniz. Əvvəl olduğu kimi sizə ipucları verə bilərəm. Di, soruşun. Sənətimlə bağlı beş sual verə bilərsiniz. Amma əvvəlcədən qaydasını deyim ki, ancaq "bəli", ya da "xeyr"la sizə cavab verəcəyəm. "Bəli", ya da "xeyr". Aydındır?

QADIN. Aydındır.

ZİYATƏTÇİ. Amma bir şərtim də var. Soruşduğunuz beş sualdan sonra, iki təxmini cavab vermə haqqınız var. Aydın oldu?

QADIN. İki azdır. Çox azdır. Üç olsun.

ZİYARƏTÇİ. Üç guya çoxdur?

QADIN. İkidən çoxdur. Mənim üçün kifayət edəcək.

ZİYARƏTÇİ. Üç təxmini cavab verə bilərsiniz.

QADIN. Bəlkə də, elə birinci təxminimdə məsələni həll edərəm.

ZİYARƏTÇİ. Kim bilir?! Bir dəqiqə... *(Fikirləşir)* Axırda nə qazanacağımıza və ya nə itirəcəyimizə də qərar verək. Yoxsa, quru və soyuq bir cəhd olar.

QADIN. Bilirsiz, çox xoşbəxtəm?! Dörd günlük bədbinliyim, nəhayət ki, sona çatdı.

ZİYARƏTÇİ. Həyatınızdakı bədbinlik dörd günə şamil olunmur. Bu, ən azı altı ay müddəti olan bir şeydir. Altı ay qabaq olmuşdu ürək tutması, elə deyil?

QADIN. Amma... Hardan bilirsiz?

ZİYARƏTÇİ. Uzun müddət mücadilə elədi.

QADIN. Kimlə mücadilə elədi?

ZİYARƏTÇİ. Əzrayılla. Və o zaman üçün qalib gəldi. Həkim dostları peşə həmrəyliyi düşüncəsi ilə o saat hərəkətə keçdilər. Qayğısına qaldılar. Amma inanılmaz qayğı idi. Bir ay sonra xəstəxanadan çıxardıb, evinizə apardılar. Gündüzlər işə gedirdin, amma anası yanında idi.

QADIN. *(Titrəyir)* Dözülməz həyat idi.

ZİYARƏTÇİ. Hə, dözülməz bir həyat idi. Çünki hər an ölə bilərdi.

QADIN. Mənim üçün dözülməz həyat onun hər an ölə biləcəyinə görə deyildi, anası olmasından irəli gəlirdi. Əməlli-başlı evə yerləşmişdi, hər şeyə qarışırdı. Məni gözləri ilə əzirdi. Elə bil ki, bütün bu olanlara mən səbəb olmuşam. Günahkar mənəm. Çünki oğlunu əlindən almışdım, onun gərgin həyat yaşamağında baş rolu oynamışdım. Ürək tutmasının olması qaçılmaz idi. Çünki oğlunu məhv etmişdim.

ZİYARƏTÇİ. Qayınananızla bağlı görüş və düşüncələrinizi danışmağa başlasanız, peşəmi tapmağınız başqa yaza qalar. Təxminlərin bir ömür boyu çəkə bilər. Amma mənim vaxtım yoxdur! Hər yerdə bu qədər ilişib qalsam, işimi icra edə bilmərəm. Hə, qayıdaq öz məsələmizə. Sənətimi tapa bilsəniz, məndən nə istəyəcəksiniz?

QADIN. Nə bilim...

ZİYARƏTÇİ. Ürəyiniz nə istəyir, deyin.

QADIN. *(Gülərək)* Yoxsa, siz Ələddinin çırağındakı cinsiz?

ZİYARƏTÇİ. Axı, onun bir dodağı yerdə idi, bir dodağı göydə. Buna görə də, təxmin haqqınızı istifadə olunmuş hesab eləmirəm. Deyin.

QADIN. Nə deyə bilərəm ki? Gördüyünüz işlə bağlı nəsə olsun?

ZİYARƏTÇİ. *(Sevinir)* Olsun. Təqdirəlayiq tətbiqdir, nümayişdir. Amma həqiqi bir nümayişdir.

QADIN. Gecənin bu vaxtı?

ZİYARƏTÇİ. Əslində, ən uyğun zaman gecələrdir.

QADIN. Birdən qonşu otaqlara, dəhlizə səs getsə? Birdən bütün xəstəxana ayağa qalxsa?

ZİYARƏTÇİ. Xəstəxanadakılar öyrəncəlidir. Heç onlara qəribə gəlməz. Gündə ən azı üç-beş dəfə şahidi olurlar.

QADIN. Yəni hamının gördüyü və bildiyi işdir...

ZİYARƏTÇİ. Elə demək olar. Ümumiyyətlə, nəticəni hamı görür. Amma zaman-zaman nümayişi izləyənlər də ola bilər.

QADIN. Gör, necə həyəcanlandım... Amma mümkünsüz bir şeydirsə, xahiş edirəm, imtina edim.

ZİYARƏTÇİ. Açıqlayanda, istəməsəz, imtina edərsiz.

QADIN. Yaxşı, bəs siz məndən nə istəyəcəksiniz?

ZİYARƏTÇİ. Dostumun həyat yoldaşısınız. Onu və sizi fikirləşib, hər ikinizin xeyrinə sizdən bir şey xahiş edəcəyəm.

QADIN. İkimizin də xeyrinə, hə?!

ZİYARƏTÇİ. Hətta anasının da xeyrinə.

QADIN. Həm anasının, həm də mənim xeyrimə, hə?! Bu, ola bilməz.

ZİYARƏTÇİ. Bu həqiqətə təəccüb edəcəksiniz. Artıq başlayaq. Amma dediyim kimi, ancaq "bəli", ya da "xeyr".

QADIN. Yadımdan çıxmayıb. Birinci sualımı verim. *(Fikirləşir)* Gördüyünüz iş... Bir məkanda, yoxsa, fərqli yerlərdə görürlür?

ZİYARƏTÇİ. Belə bir suala "bəli", ya da "xeyr" demək olmur axı. Xahiş edirəm, yaxşı-yaxşı fikirləşin.

QADIN. Gördüyünüz işi eyni məkanda görürsünüz?

ZİYARƏTÇİ. Xeyr.

QADIN. Hə... Yəni hərəkətli, gəzib-dolaşan işdir. Bir məkanda olmursunuz. Keçirəm ikinci sualıma. Gördüyünüz iş ancaq qadınlara aiddir?

ZİYARƏTÇİ. Xeyr.

QADIN. Gözəl... Deməli, həm də kişilərə aiddir. Qadın, kişi, qoca, cavan, fərqi yoxdur. Gəzib-dolaşan bir işdir. Gördüyünüz iş ərzaqla, yoxsa, geyimi əhatə edir?

ZİYARƏTÇİ. Amma bu da ikibaşlı sualdır.

QADIN. Ərzaq işinə baxırsınız?

ZİYARƏTÇİ. *(Öz-özünə)* Necə deyərlər, canım boğaza yığıldı. Buna necə cavab verməliyəm, görəsən? *(Fikirləşir)* Xeyr!

QADIN. Yaxşı... Bəs, geyim?

ZİYARƏTÇİ. Belə sual olmaz.

QADIN. Gördüyünüz iş geyimlə bağlıdır?

ZİYARƏTÇİ. Xeyr! Sonuncu şansınızdır. Yaxşıca fikirləşin, sonra soruşun.

QADIN. *(Fikirləşir)* Bir musiqi alətindən istifadə edib, sağlamlıqla bağlı iş görürsünüz?

ZİYARƏTÇİ. Amma yenə də sualınız ikibaşlıdır.

QADIN. Yəni bir musiqi alətində ifa edib, sağlamlıqla məşğul olmaq olmaz?

ZİYARƏTÇİ. Yəni deyirsən ki, bir həkim skripka çalaraq, xəstəsinə baxa bilər. Bəlkə, səhv başa düşdüm?!

QADIN. Düzgün başa düşmüsünüz. Belə bir şey ola bilməz?

ZİYARƏTÇİ. Mən heç görməmişəm. Siz görmüsünüzsə də məsləhətim budur ki, mübahisə etməyəsiniz. Bu səbəbdən düzgün bir sual kimi qəbul edib, cavablandırıram. Xeyr. Beləliklə, suallarınız yekunlaşdı. Artıq üç təxmini cavab vermə haqqınızdan istifadə edə bilərsiniz. Amma yaxşı-yaxşı fikirləşin. Birinci cavabınızı deyin. Gözləyirəm.

QADIN. Hərəkətli, gəzib-dolaşan işlə məşğulsunuz. Bütün insanlara istiqamətlənmiş bir işdir. Hər yaşda insanlarla əlaqəlidir. Elə deyil?

ZİYARƏTÇİ. Amma, baxın, yenə də sual verirsiniz. Yaxşı, bir az da asanlaşdırım. Bəli. *(Qadın fikirləşir)* Gözləyirəm. Kefinizi pozmaq istəmirəm, amma axırda mən qalib gələcəyəm.

QADIN. Xahiş edirəm, çaya çatmamış çırmalanmayın. Bəlkə, tapdım.

ZİYARƏTÇİ. Bu qədər səy göstərməyə ehtiyac yoxdur. Siz qalib gəlsəniz də itirən siz olacaqsınız. Amma nəticədə yenə də siz qalib gələcəksiniz.

QADIN. İtirib, qalib gəlmənin necə olacağını başa düşə bilmirəm.

ZİYARƏTÇİ. Onu hələ qarışdırmayın. Axırda necə olsa, başa düşəcəksiniz.

QADIN. Yenə də itirməmiş qazanmaq istəyərəm.

ZİYARƏTÇİ. Xahiş edirəm, uzatmayın. Gözləyirəm.

QADIN. Musiqiçisiniz?

ZİYARƏTÇİ. Musiqiçi olmadığımı demişdim.

QADIN. Amma bu, bir instrument çexoludur.

ZİYARƏTÇİ. Deyil! Deyiiiilll! Əstafurullah! Dedim ki, deyil! Şansınızın puç olmaması üçün bu cavabınızı eşitməməzliyə vururam.

QADIN. Xahiş edirəm, əsəbləşməyin. Yaman əyləncəlidir. Altı ay idi ki, belə bir söhbətləşməyə həsrət idim.

ZİYARƏTÇİ. Bizim elədiyimiz söhbətləşmə deyil, yarışmadır.

QADIN. Hər nədirsə... Gözəl şeydir. Evlisiniz?

ZİYARƏTÇİ. Bu da bir sual. Sayənizdə yarışmamız məqsədindən uzaqlaşan bir vəziyyətə düşür.

QADIN. Sualım oyundan kənar idi.

ZİYARƏTÇİ. *(Darıxır)* Evliyəm. Üç dənə də balaca Əzrayılım var.

QADIN. *(Qınayırmış kimi)* Uşaqlarınız dəcəl, yaramaz ola bilərlər. Amma, düzünü deyim ki, onları Əzrayıla bənzətmənizdən duruxdum.

ZİYARƏTÇİ. *(Əsəbləşir)* Onlar həqiqətən Əzrayıldırlar. Məni başa düşürsünüz? Üçü də! İkisi erkək, biri dişi!

QADIN. Əsəbləşməyin. Deməli, uşaqlarınız sizi çox əsəbləşdirir. Amma yenə də yaxşı olar ki, onları bu cür sözlərlə tanıtmayın. Nə də olsa, uşaqdırlar. Amma, doğrusu, yenə də sizi əsəbləşdirmələrinə pis oldum.

ZİYARƏTÇİ. *(Boğulurmuş kimi)* Arvadım da bir Əzrayıldır.

QADIN. Vay! Vay! Vay! Vay! Amma sizi əsəbləşdirdikləri heç bəlli olmur. Yenə də bədbəxliyinizi yaxşı gizlədirsiniz.

ZİYARƏTÇİ. *(Deyinir, mırıldanır)* Heç nəyi gizlətmirəm! Məni heç vaxt əsəbləşdirmirlər. Xoşbəxt bir evimiz var. İşdən qayıdanda, onlara apardığım hədiyyələri səbrsizliklə gözləyirlər. Dördü də pəncərədədirlər. Məni çox istəyirlər. Dörd gözlə gözləyirlər!

QADIN. Siz yaxşısınız?

ZİYARƏTÇİ. Yaxşı niyyətimdən bundan artıq istifadə etməyin. Bundan artıq uzatmamış birinci təxmininiz deyin.

QADIN. Düşünüb, cavab verin deyirsiniz, sonra da tələsdirirsiniz.

ZİYARƏTÇİ. Amma saatlarla yox. Qısa müddət ərzində fikirləşməlisiniz. Əslində, buna da bir hədd qoymalıydıq. Hətta indi də qoya bilərik. Yarım dəqiqə deyək, olsun-bitsin.

QADIN. Düzgün fikirləşməyim üçün mənə yarım dəqiqə bəs eləməz. Bir dəqiqə olsa, daha yaxşı olar.

ZİYARƏTÇİ. *(İstehza ilə)* Hətta, bəlkə, beş dəqiqə desək, daha yaxşı olar, hə?!

QADIN. Olmamış olar?! Çox gözəl olar. Yaxşı fikirləşməyim üçün bəs edər. Mənə yaxşıca imkan yaratdınız. Minnətdaram.

ZİYARƏTÇİ. Niyə?

QADIN. Vaxtı uzatdığınız üçün.

ZİYARƏTÇİ. Vaxtı nə qədər uzatdıq?

QADIN. Beş dəqiqə.

ZİYARƏTÇİ. Siz onu ciddi qəbul elədiniz?

QADIN. Axı, siz özünüz demədiniz ki...

ZİYARƏTÇİ. Dedim. Amma başa düşdüyünüz mənada yox. Yaxşı, bir dəqiqə olsun.

QADIN. Dediyiniz sözü danırsınız?

ZİYARƏTÇİ. Başqa işlərim var. Burada saatlarla sizi gözləyə bilmərəm. Hər tapşırıq üçün bu qədər vaxt ayırsam, iş görməyə gücüm qalmaz. Necə sürət dövründə yaşadığımızı görmürsünüz?! Məgər, bəzi müharibələrin üç-beş gündə bitdiyini bilmirsiniz?

QADIN. Bəziləri illərlə davam edir. Niyə məhz qısa müddətdə bitənləri misal çəkirsiniz? Müharibələr niyə tez-bazar bitmir? Çünki bəzi ölkələrin təsirli silahları

yoxdur. Mənimsə qavrama bacarığım aşağıdır. Bu səbəbdən fikirləşmə imkanımın uzadılmasını anlayışla qəbul etməlisiniz.

ZİYARƏTÇİ. Düşüncə ilə silah sözlərini necə yanaşı çəkə bilərsiniz? Bu iki söz tamamilə bir-birinə ziddir.

QADIN. Əlimizdə silah yoxdursa, düşüncələrimizi necə həyata keçirə bilərik?

ZİYARƏTÇİ. Yarışmamız mənasız bir mübahisəyə çevrildi. Cavab vermirsinizsə, imtina edək.

QADIN. Onda birinci təxmini cavabımı deyirəm. Siz... Satıcısınız...

ZİYARƏTÇİ. Bilmədiniz. Satıcı deyiləm.

QADIN. Amma mənə elə təsir bağışladınız. Təəssüf... İnanın, pis oldum.

ZİYARƏTÇİ. Xüsusilə, qadınların və uşaqların kədərlənməsinə dözə bilmərəm. Elə bircə buna görə vaxtaşırı işimdə fasilələr verirəm. Bunca illik iş həyatımda bu, zəif tərəfimə görə, iki dəfə xəbərdarlıqla, bir dəfə də maaşımın kəsilməsi ilə cəzalandırılmışam. Xahiş edirəm, üzülməyin. Bir də ki, davamlı ipucları verməklə sizə kömək elədiyimi dana bilməzsiniz. Satıcı cavabınızı da bir də eşitməyim. Elə bir söz istifadə etmişdiniz? Düzünü deyim ki, xatırlamıram. Zəhmət olmasa, ilk şansınızdan istifadə edin.

QADIN. *(Fikirləşir)* Siz... Müəllimsiniz...

ZİYARƏTÇİ. Bu, hardan ağlınıza gəldi?

QADIN. Müəllimlər mütəmadi gəzirlər.

ZİYARƏTÇİ. Bu alətlə müəllimliyin nə əlaqəsi var?

QADIN. Hə, bax, onu mən də başa düşə bilmədim. Nə əlaqəsi ola bilər? Yoxsa, musiqi müəllimisiniz?

ZİYARƏTÇİ. Axı, necə dəfə dedim ki, bu musiqi aləti deyil.

QADIN. Elə bil ki, sizə müəllimlik yaraşır...

ZİYARƏTÇİ. Mən müəllim deyiləm! Bu çexolun içində bir musiqi aləti olduğunu da qətiyyən ağlınıza gətirməyin. Digər cavabınızı gözləyirəm.

QADIN. *(Saata baxır, fikirləşərək)* Gəzəyən bir işdir. Əlindəki çexolun içində musiqi aləti yoxdur. Qətiyyən yoxdur. İşinə görə, hər yaşda olan qadın və kişi hədəfindədir.

ZİYARƏTÇİ. Yaxınlaşırsınız. Hədəf sözünü olduqca düz dediniz. Bunun üzərində daha çox fikirləşsəniz, şansınız artar.

QADIN. Hədəf! Hədəf! Hədəf! Hədəf, hə?!

ZİYARƏTÇİ. Sizə bir az da ipucu verim. Hədəf niyə görə lazımdır. *(İzah edir)* Dairələr olur, ha... Ortasında da böyük bir nöqtə.

QADIN. Silah! Silah üçün lazımdır. Yoxsa, bu, bir silahdır?

ZİYARƏTÇİ. *(Xoşbəxt)* Hə! Bir növ silah hesab olunur. Yoooooox... Əslində, bu çexolun içindəki həqiqətən də silahdır. Afərin! Tapacaqsınız.

QADIN. Siz...

ZİYARƏTÇİ. Can almaqla bağlı bir işdir. Xahiş edirəm, ətraflı fikirləşin. Diqqətli olun! Can almaq! Kim alır? Fikirləşin! Tələsməyin! Son şansınızı yaxşı istifadə edin.

QADIN. Can almaqla əlaqəlidir, dediyiniz üçün tapdım. Təşəkkür edirəm.

ZİYARƏTÇİ. *(Sevincli)* Deyin.

QADIN. Polissiniz. Polis, polis.

ZİYARƏTÇİ. Ay aman!..

QADIN. Tapdım, hə?

ZİYARƏTÇİ. Tapmadınız. Axı mən sizə demişdim ki, mən məlum bir məkanda işləmirəm. Gəzərək, vəzifə icra etdiyimi bilirdiniz.

QADIN. Amma gəzən komandalar da var.

ZİYARƏTÇİ. Daha bu işi uzatmayaq. Bilmədiniz. Amma yenə də siz qazanacaqsınız.

QADIN. Bu, necə olacaq, başa sala bilərsiz?

ZİYARƏTÇİ. Əvvəlcə, peşəmi açıqlamağım lazım deyil?

QADIN. Zəhmət olmasa, bir təxmin etdiyimi deyə bilərəm?

ZİYARƏTÇİ. Lazım deyil. Çünki iş uzanacaq. O ki qaldı bilməməyinizə, o barədə heç bir şübhəm qalmadı. Amma mən sizə əməlli-başlı kömək eləməyə çalışdım. Amma o qədər vüqarlısınız ki... Amma geyimimi görəndə, o saat biləcəksiniz.

*(Ziyarətçi üst paltarını çıxarıb, kreslonun üstünə atır.*
*Ənənəvi Əzrayıl libası ilə Qadının qarşısındadır...)*

QADIN. Aaa... Çox rahat imiş.

ZİYARƏTÇİ. Sizə demişdim. Hə, bir də sizin ağzınızdan eşidim, qələbənin ləzzətini yaşayım. Deyin görək!

QADIN. Siz... Dalğıcsınız.

*(Ziyarətçinin əli-ayağı əsməyə başlayır.)*

QADIN. Bunu necə bilməyəsən, çox asan imiş. Hələ deyirsiniz ki, ipucu verirsiniz. Ayıb olsun sizə! *(Başa salır)* Dəniz... Qolcuq... Cummaq... Tapmağıma kömək edə bilərdiniz.

ZİYARƏTÇİ. *(Saçını-başını yolurmuş kimi dəli kimi hərəkətlər edir. Bəlkə, baş-ayaq dayanır, bəlkə, havada mayallaq aşır. Qaçıb, başını divara vurur. Böyük səylə sakit görünməyə çalışaraq, Qadına susmasını işarə edir. Əlləri titrəyərək, çexolun içindən çıxartdığı ənənəvi silahını, yəni dəryazını şəkillərdə təsvir olunduğu kimi əlində saxlayır. Zəif səslə və nəhayətsiz ağrı ilə)* Bəs indi?

QADIN. Siz əlində dəryaz tutan dalğıcsınız...

*(Ziyarətçi özünü güc-bəla ilə kresloya salır. Ürəyigetməsi keçirir. Qadın masanın üzərindəki adekalonu bir pambığa damızdırıb, Ziyarətçinin, əsasən, burnuna, üzünə, boğazına və boynuna sürtür. Bir müddət sonra, Ziyarətçi gözlərini açır. Çaşqın halda, ətrafına baxır.)*

QADIN. Sizə nə olub? Bəlkə, təzyiqdir? Bir az duzlu ayran kömək edər. Amma hardan tapaq?!

*(Ziyarətçi ona mimikası, bir az da yalvarıcı siması ilə başa salmaq istəyir ki, danışmasın.)*

QADIN. Sizin üçün nə edə bilərəm?

ZİYARƏTÇİ. *(Güclə danışır)* Susmağınız... Susmağınız kifayətdir. Xahiş edirəm.

QADIN. Növbətçi həkimi çağıra bilərəm.

ZİYARƏTÇİ. *(Əsəblərinə daha artıq hakim ola bilməyərək, Qadının qolundan tutur)* Susun! Susuuun! Susmasanız, susduraram! And içirəm ki, susduraram!

QADIN. Qolumu buraxın! İncidirsiniz... Xahiş edirəm, özünüzü ələ alın.

ZİYARƏTÇİ. *(Qadının qolunu buraxıb, təzədən yalvarıcı bir görünüş alır)* Üzr istəyirəm. Birdən pisləşdim. Neylədiyimi bilmədim. *(Ayağa qalxır, olduqca sakitdir.)* Hərdənbir belə olur. Qorxulası heç nə yoxdur. Xahiş edirəm, bu hadisəni yadınızdan çıxarın. Bilən olsa, biabır olaram.

QADIN. Heç kimə deməràm. Mənə güvənə bilərsiniz.

ZİYARƏTÇİ. Hardadırsa, indi qayınananız gələcək. Artıq mövzuya keçək. Mənə qulaq asırsınız?

QADIN. Bəli.

ZİYARƏTÇİ. Eləysə, qəlbinizlə qulaq asın. Baxın, hər şeyi hisslərinizlə yox, ağlınızla fikirləşəcəksiniz. Bu andan etibarən duyğusallıq yox, ağıllılıq var. Aydındır?

QADIN. Amma siz mənə əvvəlcə itirdiyim halda, əldə edəcəyim şeyin nə olduğunu demədiniz.

ZİYARƏTÇİ. Deyə bilmərəm... Çünki sizi təsirləndirməyim üçün gərək açıqlamağı axıra saxlayım. Təzə siyasətçilər kimi axırda deməli olduğumu əvvəldə desəm, məğlubiyyətim qaçılmaz olar. Bacarıqsızlıq isə bizim peşənin heç zaman qəbul eləməyini bir nəticədir. Artıq başlayaq. Oldu?!

QADIN. Oldu.

ZİYARƏTÇİ. Əvvəlcə, ərinizə baxın. Baxın, baxın...

QADIN. Oyunun həyəcanından o yadımdan çıxıb.

ZİYARƏTÇİ. Nə görürsünüz?

QADIN. Onu görürəm.

ZİYARƏTÇİ. Neyləyir?

QADIN. Heç nə eləmir. Ancaq yatır.

ZİYARƏTÇİ. Bir ölü kimi... Elə deyil?

QADIN. Yox. Hərdənbir gözlərini açır. Məni görür. Ətrafı görür. Gözlərini yumub-açır... Və ağlayır... Halını başa düşür. Amma mən on baxanda, çox pis oluram.

ZİYARƏTÇİ. Gözəl... Vəziyyəti dəyərləndirməyiniz uğurludur. Siz onun üçün nə edirsiniz?

QADIN. Mən də ona baxıram. O ağlayanda, ağlamamaq üçün özümü güclə saxlayıram. Bəzən dayana bilməyib, vanna otağına qaçıram. Ya da göz yaşlarımı görməsin deyə, gecə fənərini yandırıram.

ZİYARƏTÇİ. Yəni ki, əzab çəkirsən...

QADIN. Hə...

ZİYARƏTÇİ. Əzab çəkdiyini başa düşür?

QADIN. Hə...

ZİYARƏTÇİ. Eləysə, o da əzab çəkir. Qarşılıqlı əzab çəkirsiniz. Gündüzləriniz, gecələriniz əzab içində keçir.

QADIN. Axı, başqa neyləyə bilərəm?

ZİYARƏT. Budur! Acı həqiqət bundadır. Onun üçün əzab çəkməkdən başqa heç nə edə bilməzsiniz.

QADIN. Bəs deyil?

ZİYARƏTÇİ. Bəsdir?.. Belə başa düşürəm ki, ərinizi sevirsiniz?!

QADIN. Hə, sevirəm. Çox gözəl günlərimiz olub... Unudulmaz gecələrimiz... Onu necə sevməyə bilərəm?! O, mənim hər şeyimdir.

ZİYARƏTÇİ. Bir az əvvəl mənimlə bir oyun oynadınız. O, yadınızdan çıxdı. Elə bil, burda yox idi.

QADIN. Unuda bilərəm?

ZİYARƏTÇİ. Olanı yox, olması lazım olanı deyirsiniz. Həqiqəti gizlədirsiniz. Xahiş edirəm, bir-birimizi aldatmayaq.

QADIN. Düzdür, unutdum. Amma başqa neyləyə bilərəm ki?! Düz dörd gündür yanındayam. Gərginəm. "Nə olacaq?" sualı beynimi gəmirir.

ZİYARƏTÇİ. Elə, ya belə, fürsət tapan kimi həqiqətlərdən qaça bilirsiniz.

QADIN. Sıxıntıları olan adamalara həkimlər ya balıq tutmağı, ya da hörgü hörməyi məsləhət görürlər. Ərim də məsləhət görür, görərdi... Mənimki belə qaçışdır.

ZİYARƏTÇİ. Düzdür... Baxın, indi danışdıqlarınız mənalı olmağa başladı. Çünki dilinizə həqiqətləri gətirirsiniz. Bu yaxınlaşmanınızı davam etdirin. Rahatlayacaqsınız... Dörd gündür işinizə getmirsiniz.

QADIN. Hə...

ZİYARƏTÇİ. Amma artıq getmək məcburiyyətindəsiniz. Bu iqtisadi böhranda heç kim heç kimi bundan artıq yola verməz... İşdən çıxara bilərlər.

QADIN. Düzdür.

ZİYARƏTÇİ. İşsiz qalsanız, necə dolanacaqsınız? Əlavə gəlir yeriniz var?

QADIN. Yox. Üstəlik, axır altı ayda ancaq mənim maaşımla dolanmağa çalışırıq. Bu arada müalicəxana da bağlandı. Üç-beş dənə materialı da satmaq məcburiyyətində qaldıq.

ZİYARƏTÇİ. Çox təəssüf...

QADIN. Amma mən işsiz qalmayacağam. Bu gecə qayınanam gələcək. Gündüzlər yanında o qalacaq. İşə gedə biləcəyəm.

ZİYARƏTÇİ. Real dünyaya qayıdırsınız. Buna sevinirəm.

QADIN. İşdən qayıdanda, bura gələcəyəm. Gecə yanında mən də qalacağam.

ZİYARƏTÇİ. Çox sevdiyiniz qayınananızla eyni kresloda mürgüləyərək, hə?!

QADIN. Bir müddət... Məncə, bir ay sonra evə aparacağıq. Onda xüsusi çarpayısı gələcək.

ZİYARƏTÇİ. Və siz qayınanızla birlikdə gül kimi dolanacaqsınız.

QADIN. Hə... Çünki o, bizim ortaq sevgilimizdir. Bir-birimizə dözməyə məcburuq. Telefonda danışıb, razılığa gəlmişik.

ZİYARƏTÇİ. Ağlayaraq, elə deyil?

QADIN. Bəli. Ağlayaraq.

ZİYARƏTÇİ. Yəni hər ikiniz də ağıllı yox, duyğusal idiniz?! Biriniz anası, biriniz həyat yoldaşı. Amma heç ağlınıza gəlmədi ki, anası yaşlı qadındır. Birdən sabah anası yer üzünü tərk elədi?! Heç bunu fikirləşmisiniz?

QADIN. Fikirləşməmişəm.

ZİYARƏTÇİ. Eləysə fikirləşin. Bir gecə işdən evə qayıtdınız ki anası... Göy üzünə uçub... Ondan sonra neyləyəcəksiniz?

QADIN. Ümid edirəm ki, elə bir şey olmaz.

ZİYARƏTÇİ. Niyə? Yaşlı qadın... Gözlərini açanda ağlayan bir oğul... Özü də üstəlik, gözlənilmədən, ehtiyatsız ağlayan... Bir ana bu cür ağrıya necə dözə bilər? Yaxşı, bəs onda bu adama gündüzlər kim baxacaq? Yadınızdan çıxarmayın ki, gündüz işə gedirsiniz.

QADIN. İllik icazəmdən istifadə edərəm.

ZİYARƏTÇİ. Baxın, yenə duyğusallaşırsınız. Nəticədə, bir aylıq icazəniz var. Bu günlərdə icazənizdən istifadə etməyi tövsiyə eləmədiyimi demişdim. Bəs, on bir ay nə olacaq?

QADIN. Bilmirəm.

ZİYARƏTÇİ. Mən bilən, yaşadığınız ev də sizin deyil.

QADIN. Ev məsələsini həll eləmişik. Anası əyalətdəki evini satır. Burdan balaca mənzil olacaq. Kirayə problemimiz olmayacaq.

ZİYARƏTÇİ. Bu, xoşuma gəldi. Amma işsiz qalanda neyləyəcəksiniz? Nə yeyib-içəcəksiniz? Yəqin ki, “pəhriz edərəm” kimi gülünc cavab verməyəcəksiniz. Çünki görürəm ki, artıq çəki probleminiz yoxdur. Hələ, bəlkə də, bu son altı ayda bir az zəifləmisiniz. Əsas da bu dörd gündə. Elədir?

QADIN. Elədir.

ZİYARƏTÇİ. Üstəlik, ev sahibi olmaq problemi tamamilə həll eləməyə kifayət deyil axı. Qapıçı, işıq, su, istilik kimi xərclər və ödənişlər. Bütün bunların öhdəsindən necə gələcəksiniz?

QADIN. Qayınanamın təqaüdü var.

ZİYARƏTÇİ. Təqaüdçülərin təqaüdü haqqında yəqin ki, heç bir fikriniz yoxdur. Hələ üstəlik, ərindən qalan məvacib... Azın da azı... Kefinizi pozmaq istəmirəm, amma, bəlkə, işıq pulunu ödəyər.

QADIN. Elə də yox. Hamısına çatar. Mənimki ilə də rahat dolanışığımızı təmin edərik. Onsuz da nə yeyirik ki?!..

ZİYARƏTÇİ. *(Görür ki, Adam gözlərini açdı.)* Gözlərini açdı.

*(Qadın Adama baxır. Adam, elə bil, nə isə demək istəyir. Qadın ağlamamağa çalışır. Dayana bilməyib, vanna otağına qaçır. Adam gözləri ilə Ziyarətçini tapır. Minnətdarlıqla baxır. Elə bil, "Şükür, gəldin!" deyirmiş kimidir. Ziyarətçi də gülümsəyir. Bir-birilərinin üzünə dostyana gülürlər.)*

ZİYARƏTÇİ. Məni eşidirsən, elə deyil?! *(Adam böyük sevinclə gözlərini yumub-açır.)* Səni aparmağa gəlmişəm. *(Adam xoşbəxtcəsinə gülümsəyir.)* Amma hələ vaxta var. *(Adam kədərlənir.)* Bilirəm ki, mənimlə gəlmək üçün sonsuz istəyin var. Sənin kimi ümidsiz xəstələrin hamısı mənimlə getmək üçün dünyanı ayağa qaldırırlar. Amma nə olsun, İnsan Haqları Dərnəyi təzyiq göstərir. Bu cür gedişlərdə ana, həyat yoldaşı, ata, qardaş kimi yaxınların razılığının alınmasını istəyirlər. Onlar əsaslı təzyiq qrupudur. Dinləməyə məcburuq. Bizim komanda əmin etmək üsulunu sınamağa qərar verib. Sən birinci təcrübəsən.

*(Adam narahat olur.)*

ZİYARƏTÇİ. Gərək arvadınla anan razılıq versin. Başa düşürsən? *(Adam üz-gözünü əməlli başlı turşudur. Ümidsizdir.)* Bu qədər ümidsiz olma. Arvadının razılıq verməsinə az qalıb... Məni əsas narahat edən... Anan... Amma əmin ol, hər ikisinin razılığını alacağam...

QADIN. *(Gəlir)* Aman Allah, dözə bilmirəm! İstəmirəm ki, ağlasın. Çox pis oluram.

ZİYARƏTÇİ. Çarəsi var.

QADIN. Neçə dəfə dedim ki, ağlamasın.

ZİYARƏTÇİ. Eləyə bilməz. Çünki vəziyyətindən xəbərdardır.

QADIN. Laxtanı çıxartma ehtimalı var. Bunu da bilir. Amma yenə də ağlayır.

ZİYARƏTÇİ. Laxtanı çıxarda bilməyəcəni bilir. Çünki, o da bir neçə xəstəsinə belə ümid vermişdi. Özümüzü aldatmayaq. Bunun bircə çarəsi var. *(Susur)* Göy üzünə uçmaq...

QADIN. *(Adam eşitməsin deyə, radionun səsini artırır.)* Siz nə danışırsınız?!

ZİYARƏTÇİ. Deyirəm ki, ölməlidir. Məni başa düşürsünüz?

QADIN. Belə bir şeyi heç fikirləşmək istəmirəm.

ZİYARƏTÇİ. Bu, hamınız üçün ən yaxşısı və xeyirlisi olacaq. Bir neçə gündən sonra, "yaxşı oldu, canı qurtardı" deyəcəksiniz. Problem həll olunacaq.

QADIN. O, zəhrimara qalmış laxtanı çıxara bilmək bacarığı belə kifayətdir ki, belə bir şey arzulamayaq.

ZİYARƏTÇİ. Bu, bir arzu deyil ki... İstəməyiniz və bunu deməyiniz bu problemin həlli olacaq.

QADIN. Bu, necə olacaq? Hərhalda, mən eləməyəcəyəm.

ZİYARƏTÇİ. Yox, yox. O, cinayət olar.

QADIN. Eləysə, nə demək istəyirsiniz? Kim olacaq, kim edəcək?

ZİYARƏTÇİ. Onu aparası adamı elə də uzaqlarda axtarmayın.

QADIN. Sizi başa düşmürəm.

ZİYARƏTÇİ. Budur, yanınızdayam.

*(Sükut)*

QADIN. Siz!.. Siz necə insansınız? Yoxsa, dəlisiniz? Belə bir şeyi necə təklif edə bilərsiniz?!

ZİYARƏTÇİ. Nə insanam, nə də dəli. Mən həqiqi ölüm mələyiyəm.

QADIN. *(Eşitməyibmiş kimi)* Hələ üstəlik dostusunuz.

ZİYARƏTÇİ. Dostu-mostu deyiləm. Sizi qorxutmamaq üçün elə demək

məcburiyyətindəydim. Yəni ağ yalan... Bəzi insanların tez-tez istifadə etdiyi formadan... Əslində, mənim o gözlənilən ölüm mələyi olduğumu o saat başa düşmüşdünüz. Amma özünüzü elə göstərdiniz ki, başa düşməmisiniz. Şüurunuz duyğusallığınızı qabardıb, ağılla fikirləşməyinizə mane olurdu. Ürəyim gedəndən sonra, o saat özümə gəlməyimi bunu həll eləməyimə borcluyam. Elə bil ki, ömrünüz boyu dəryazlı şəkil görməmisiniz. Bəs, söz vermişdiniz ki, ağılla hərəkət edəcəksiniz?! Nə oldu? Yoxsa, sözünüzün üstündə dayanmırsınız?! Siz gənc qadınsınız. Üstəlik, həm cazibədar, həm də gözəlsiniz. İş yerinizdəki adam başda olmaqla bir çox kişinin maraq dairəsisiniz.

QADIN. Amma mən ərimdən başqa heç kimlə bir yerdə olmamışam.

ZİYARƏT. Mən elə bir söz demədim. Amma altı aylıq fasilə sizdə yaşadığınız dəlisovluqları təzələməyə ehtiyac yaradıb. Xüsusilə, bu günlərdə... Xahiş edirəm, özünüzü aldatmayın. Haqlısınız... Vəziyyətiniz asan deyil. Heç olmasa, beyninizdə bir kişi ilə birlikdə olmağı xəyal edirsiniz. Xoşbəxt olduqları fikirləşilən cütlüklərdə də bu cür düşüncələr ikinci qoşalıqda kəskin qüvvə ola bilər. Buna seksoloqlar fantaziya deyir. Özünüzü günahlandırmayın. Bunu hamı xəyal edir. Qucaqlarında öz həyat yoldaşları olsa da bir başqa qadının, ya kişinin qoxusunu, burnunu, ağzını, dodaqlarını, ya da cinsiyyət orqanını fikiləşə bilər. İndiyə qədər heç bir kişini də olsa, xəyal eləməmisiniz? Üstəlik, bu adamın qucağında, münasibət vaxtında? Deyin, xəyal eləməmisiniz?

QADIN. *(Çaşqın, təəccüblü. Adamın yatdığını hesab edib, yenə də zəif səslə)* Sizdən qorxuram. Elə bil, ürəyimi oxuyursunuz.

ZİYARƏTÇİ. Bu cür seanslara çox qoşulmuşam. Bilməmiş olaram, bilirəm. Amma səhvini düzəltməyin də sənə bəs eləməyəcək. Özünü günahlandırma, bu, bir həqiqətdir. Çünki kişi qoxusu üçün əməlli-başlı darıxmısan. Hətta iş yerindəki kişinin səninlə olmaq istəyi səni xoşbəxt edir.

QADIN. Amma yenə də evinə çağırsa da getmirəm.

ZİYARƏTÇİ. Nə vaxta qədər getməyəcəksən? Yoxsa, darıxma məqamını gözləyirsən? Ya da sərxoşluğa sığınmağı...

*(Qadın adamın yanına gedir, əlini tutur, fikirləşir)*

QADIN. Nə desəniz də boşdur. Məndən nəticə çıxara bilməzsiniz. Çıxın gedin burdan. Mən ərimi sevirəm. Bir ehtimal olsa, onu gözləyəcəyəm.

ZİYARƏTÇİ. Amma mən bura onu aparmağa gəlmişəm. Nə bahasına olur-olsun, onu aparacağam.

QADIN. Yox!

ZİYARƏTÇİ. Yoxsa, məni cəzalandırarlar.

QADIN. Bu məni maraqlandırmır.

ZİYARƏTÇİ. Amma mənə maraqlıdır. Onda başqa çıxış yolu tapaq. Çarəni birlikdə axtaraq. Birinci dərəcəli ölüm mələyi olmaq fürsətimi itirmək istəmirəm. Məni başa düşürsünüz?

QADIN. Mən də istəmirəm ki, siz ziyana düşəsiniz. Amma sizin üçün nə edə bilərəm axı?

ZİYARƏTÇİ. Sizi aparım.

QADIN. O, nə deməkdir?

ZİYARƏTÇİ. Bu işi asanlıqla görə bilərəm. Çünki öz istəyinizlə olacaq. İnanın ki, getmək o qədər də çətin deyil. Gedəndə, xoşbəxt olacaqsınız.

QADIN. Siz sarsaqladığınızı dərk edirsiniz?

ZİYARƏTÇİ. Ərinizin yaşamağı üçün fədakarlıq edəcəksiniz. Buna yuxarı komitə əsəbləşəcək, amma xırda cəza ilə canımı qurtarmaq şansım olacaq. Çünki bu, peşə həyatımda birinci dəfə baş verəcək. Nümunələri var.

QADIN. Yox, yox! Bu, çox mənasız fədakarlıq olar. *(Adamın əlini buraxır.)* Sağalması dəqiqləşməyən bir xəstədir.

ZİYARƏTÇİ. Siz öz həyatınızı bu adamdan ötrü hələ ölməmiş qurban vermirsiniz? Bu vəziyyətdə bir tamaşaya belə, baxa bilməyəcəksiniz. Teatra getməyən insan, onsuz da ölüyə taydır. Eləysə, bunu olduğu kimi həyata keçirək. Beləliklə, məni də xilas etmiş olarsınız.

QADIN. Havayı yerə özünüzü yorursunuz.

ZİYARƏTÇİ. Qarşımdakı bütün çarələri heç edirsiniz. Amma elə fikirləşməyin ki, vəziyyəti olduğu kimi qəbul edib, gedəcəyəm. Sizi xəbərdar edirəm! *(Dəryazı əlinə alır.)* Məni eşidirsiniz? Sizi aparacağam. *(Qadın otağın içində qaçmağa çalışır.)* Beləliklə, fədakarlığınız da həqiqətən reallaşacaq. *(Dəryazla darayır, Qadın hər dəfəsində sivişərək canını qurtarır.)* Amma isti su ilə yuyunmaq, dostunuzu içinizdə hiss eləmək necə gözəl olardı... Bir də ki, bu fədakarlıq kimin üçündür? Əriniz onsuz da dəstəkləyəcək vəziyyətdə deyil. Qaldı ki, bir az əvvəl siz vanna

otağında olanda, mənə gözləri ilə yalvardı ki, onu aparım. *(Qovalama davam edir. Aydındır ki, Ziyarətçi Qadını yola gətirməyə çalışır. Çünki dərrakəli şəkildə dəryazı zərərsiz istifadə edir.)* Ən vacibi qayınanandır. Onun dəstəkləməyini gözləyirsinizsə, bu, sizin ən böyük səhvinizdir. Oğlu ilə bir yerdə qalacaq. Başa düşürsən, ikisi birlikdə qalacaq.

*(Qadın da Ziyarətçi də birdən dayanır.)*

QADIN. Onlar yaşayacaq, mənsə...

ZİYARƏTÇİ. Hə... Heç duş da qəbul edə bilməyəcəksiniz. Hələ üstəlik, qayınananız olan o qadın qəbrinizə bir dəstə çiçək belə, gətirməyəcək.

QADIN. Hə, gətirməz!

ZİYARƏTÇİ. Eləysə?

QADIN. Başqa çarə yoxdur?

ZİYARƏTÇİ. Var?

*(Qadın fikirləşir.)*

ZİYARƏTÇİ. Fikirləşməyə vaxt yoxdur. Qayınananı gözlə. İcazə al və get. Vanna otağına gir. Su səni sakitləşdirəcək. Sonra dərin bir yuxu... Özünü günahlandırma. Deyəcəksən ki, yaxşı oldu, axır ki, canı qurtardı. Mənə dua edəcəksən.

*(Qadın kresloda oturur. Ziyarətçi dəryazı aşağı salır.)*

ZİYARƏTÇİ. İnsan Haqları Cəmiyyəti də heç nə edə bilməyəcək. Əksinə, hələ vəzifələrini icra etdikləri üçün üərklərində lovğalanacaqlar. Mənsə vəzifəmi icra etməyimin xoşbəxtliyi ilə üç balama hədiyyələr alıb, arvadımın sözü ilə qırmızı pəncərəli yuvamıza-evimizə qayıdacağam. Körpələrim, arvadım məni pəncərələrdə gözləyəcəklər. Hamını xoşbəxt edəcəksən. Özünlə birgə hamını. Bu ən yaxşı çarə olacaq. Beləliklə, sevimli ərin də xilas olacaq. Hamı xilas olacaq!

*(Ziyarətçi susur. Qadın həyəcanla fikirləşəndə)*

P Ə R D Ə

## İ K İ N C İ   H İ S S Ə

*Ziyarətçi üst geyimini – paltosunu geyinib. Dəryazını çexola yerləşdirir. Qadın kresloda oturub, fikirləşir. Amma elə də qərarsız deyil. Adamın gözləri bağlıdır. Hərəkətsiz yatır. Radiodan dərinlikdən musiqi səsi eşidilir. Ziyarətçi zəncirbəndini çəkdiyi çexolu kreslonun yanına tikir.*

ZİYARƏTÇİ. *(Saatına baxır)* Gecikdi.

QADIN. Hardadırsa, gələr.

ZİYARƏTÇİ. İş çox gerilədi.

QADIN. Amma gərək sizi burda görməsin. Mən gedəndən sonra, üz-üzə gəlməlisiniz.

ZİYARƏTÇİ. Onu heç fikirləşməyin. Əmin ola bilərsiniz, hər şey aramızda qalacaq.

*(Sükut... Telefon çalır, Qadın dəstəyi qaldırır.)*

QADIN. Alo!

SƏS. Salam!

QADIN. Salam!

SƏS. Anası gəldi?

QADIN. Hər an gələ bilər.

SƏS. Kaş ki, tez gələ.

ZİYARƏTÇİ. *(Zəif səslə)* Kimdir?

QADIN. *(Telefonun dəstəyini əli ilə bağlayıb)* İş yerimdəki dostum.

ZİYARƏTÇİ. Ay sağ ol! Rahat danış. *(Mənalı-mənalı gülür)* Fürsətdən istifadə etməlisiniz.

SƏS. Darıxırsınız?

QADIN. Bir az.

SƏS. Tez gəlsə, çox yaxşı olar.

QADIN. Hə.

SƏS. Özünüzü pis hiss edirsiniz, hə?!

QADIN. Həm də çox.

SƏS. İsti duş sizi rahatladacaq.

QADIN. Ümid edirəm...

SƏS. Bir az əvvəl mən elədim. Rahatladım. Bir qədəh içki də yaxşı təsir elədi. Bütün yorğunluğum çıxdı. Vivaldiyə qulaq asıram. Təklifim qüvvədədir.

QADIN. Yadımdan çıxmayıb.

SƏS. Gələcəksiniz?

*(Qadın cavab vermir. Ziyarətçi artıq dözə bilmir.*
*İşarə ilə Qadına bildirir ki, müsbət cavab versin.)*

SƏS. Sualıma cavab vermədiniz.

QADIN. Hə...

SƏS. Məni çox sevindirdiniz.

QADIN. *(Səsi titrəyərək)* Bunlar haqqında danışarıq.

SƏS. Elədir, danışarıq. Necə də olsa, vaxtımız çox olacaq.

QADIN. Amma hər şey gəlməyindən asılıdır.

SƏS. İndilərdə gəlməlidir. Neyləyək?

QADIN. Gözləyəcəyik gəlsin.

SƏS. Ümid edirəm ki, çox yubanmazsınız.

*(Ancaq Qadın və Səs var. Digərləri Qadının yadından çıxıb. Dəhlizdən ayaq səsləri eşidilir. Ziyarətçi Ananın gəldiyini anlayır. Həyəcanlanaraq ananın gəlməsini başa salmağa çalışır.)*

SƏS. İndi vannanı doldurmağa başlayacağam. Hətta şampunun qapağını da açacağam ki, vaxt itirmədən rahatlığa qovuşasan.

*(Ziyarətçi Qadını silkələsə də cavab ala bilmir və çexolu götürüb, pərdənin arxasında gizlənir.)*

SƏS. İndidən lifçiyinin ilgəyini açmalısan. Bilirsən ki, açmaq çox çətindir.

QADIN. Mənimki asandır.

*(Ana içəri girir. Bir əlində bir əlində not malberti və balaca bir çamodan, digərində isə bir əsa. Qadın Ananı görür.)*

QADIN. *(Dəstəyi asır)* Xoş gəlmisiniz!

ANA. *(Əlindəkiləri qoyub, sakitcə oğlunun baş tərəfinə gəlir.)* Ah! Səni bu vəziyyətdə də görəcəyəmmiş!.. *(Ağlamamaq üçün özünü güclə saxlayır. Oğlunun əlini tutur, oxşayır.)*

QADIN. Oyanacaq.

ANA. *(Qadına iti, kəskin baxışlarla baxır)* O, mənim oğlumdur! *(Həmin həssaslıqla oğluna tərəf çevrilir. Adam oyanır. Ananı görür. Yavaş-yavaş üzünü qırışdırır. Ağlamamaq üçün özü ilə mübarizə aparır.)*

QADIN. *(Zəif səslə)* Ağlamayın. Həkimlər xəbərdar ediblər. Vanna otağına keçin.

*(Ana qorxur ki, oğluna ziyan vurar, buna görə də vanna otağına keçir.)*

QADIN. *(Arxasınca)* Orda doyunca ağla. Elə elə ki, qayıdanda, gözündə axası yaş qalmasın.

*(Vanna otağından daha çox açılan su kranının gurultusu eşidilir.)*

ZİYARƏTÇİ. *(Pərdəni aralayıb, başını çıxarır)* Bəs, fikrindən daşınsa? *(Qadına yanına gəlməsi üçün işarə edir. Qadın onun yanına gedir.)* Duş qəbul eləmək aydınladar, münasibət rahatladar, yuxu sakitləşdirər. Səhər oyananda, təzə doğulmuş kimi olacaqsan. Dəri dartılır, gözəlləşir! Dərin dirilir. Ard-arda ediləcək üç hərəkət necə gözəl, necə uca, necə mənalıdır. Şanslısan. Sabah səhər təzədən diriləcəksiniz. Mənə arxanızı çevirin. *(Ziyarətçi ona arxasını çevirən Qadının köynəyinin altına əlini salıb, çətinlik çəkmədən lifçiyinin düyməsini açır. Başqa kişilər kimi kobudluqla yox, məharətlə, səliqə ilə və qətiyyən çətinlik çəkmədən. Eyni ilə kərə yağından tük çəkən kimi.)* Budur, hazırsan.

QADIN. *(Ovsunlanmış kimi)* Təşəkkür edirəm. *(Ziyarətçinin əlini səcdə edirmiş kimi öpür.)*

ZİYARƏTÇİ. Heç vaxt itirmək olmaz. Bu adrenalini axıra çıxmamalısan. Hələ bir kişini gözlətməkdən ağır əzab kəşf edilməyib. Alovunu öz-özünə söndürsə, sənin də atəşin həmin an sönməz. Gözləmək qadınlar üçün də ən ağır əzabdır. Çünki yanardağ gözləyir ki, havasız qalıb sönsün. Lavaların ətrafı məhv etməsinin qarşını almalısan.

QADIN. Neyləyə bilərəm?

ZİYARƏTÇİ. Çalış ki, tez bir zamanda içindən çıxsın. Bu, səsə qulaq as... Bu qədər ağlamaq ana üçün belə çoxdur. Necə də olsa, bir azdan yenə də güc toplayıb ağlamağı davam etdirəcək. Buyur görək, dayanma!

QADIN. *(Vanna otağına yaxınlaşıb, qapını tıqqıldadır)* Daha gəlin.

ANA. Doyunca ağlaya bilməyəcəyəm?!

QADIN. Bir az danışaq. Yolu necə gəldiniz?

ANA. Heç bilirəm ki, nəyə mindim, nə ilə gəldim?!

QADIN. Çox yorulmuşam. Neçə gündür yuxusuzam. Əslində, bununla bağlı hər şey haqda telefonda danışmışıq.

ANA. “Bu” dediyin kimdir ki?

QADIN. Oğlun.

ANA. Mənim oğlumdur, bəs sənin nəyindir?

QADIN. Mənim də ərim. Amma ərim desəm, iş uzanar.

ANA. Uzansın...

QADIN. Axı demişdim ki, çox yorğunam.

ANA. Bilirsən ki, bundan zövq alıram. Elə bilirdim, sənin də xoşuna gəlir. Məni niyə aldadırsan?

QADIN. Aldatmıram, aldatmaram da. Amma əlac yoxdur, sabah işə getməliyəm. Hələ duş qəbul eləyəcəyəm. Yoxsa, məcbur sənin əmək haqqınla dolanmalı olarıq.

ANA. Olmayaq.

QADIN. Eləysə, söhbətimizi tez yekunlaşdıraq.

ANA. Belə başa düşürəm ki, əvvəlki qədər dalaşmaqdan zövq almırsan. Sənin üçün yorğunluq-zad boş şey idi. Bunu qəbul elə.

QADIN. Deyəsən, başa sala bilmirəm. Düz altı aydır ki, oğluna mən baxıram.

ANA. Əgər məni qovmaqdan da pis hala salıb, evdən uzaqlaşmağıma səbəb olmasaydın, bu qədər yorulmazdın.

*(Ziyarətçi başını pərdənin arxasından çıxarıb, Qadına tez olmasını işarə edir.)*

QADIN. Köhnə dəftərləri açmayaq. Bundan ziyan görən mən olmayacağam.

*(Ziyarətçi qolundakı saatını israrla Qadına göstərməyə davam edir.)*

ANA. Mən olacağam? Hamı səni tanıyır.

QADIN. Sizi heç kim tanımır. Çünki siz mələksiniz.

ANA. Mənə mələk deyə bilməzsən.

*(Hətta Adam da hərəkətə gəlib, az qalıb ki, mübahisəni dayandırmaq üçün ayağa qalxsın.)*

ZİYARƏTÇİ. Bir az da didişsələr, laxtanı tullayacaq. Ən əsası, telefondakı səsin səsi kəsiləcək, rahatlanıb, dərin yuxuya gedəcək.

QADIN. Yaxşı, qoy sən deyən olsun. Sən mələk deyilsən. Şeytansan!

ANA. Daha bəsdir!

QADIN. Bəs deyil. Mələk deyirəm, xətrinizə dəyir, şeytan deyirəm, əsəbləşirsiniz. Nə deyəcəyimi bilmirəm.

ANA. *(Kinayə ilə)* Mələk! Elə bil ki, nə demək istədiyini başa düşmürəm?!

QADIN. İrəliləyiş yaxşıdır. Sağ olun ki, məni yormursunuz.

ZİYARƏTÇİ. *(Başını çıxarıb qışqırır)* Mətləbə keçin də!.. *(Çəkilir)*

QADIN. Sabah axşam qaldığımız yerdən davam edərik.

ANA. Onda mətləbə keçərik.

QADIN. Danışdığımız kimi olacaq. Gündüz işə gedəcəyəm. İşdən qayıdanda, bura dəyib, evə gedəcəyəm. Mənə elə gəlir, burda baş-başa, qucaqlaşıb yatmağımızı siz də istəmirsiniz.

ANA. İstəmirəm. Onsuz da gələn həftə evim artıq satılacaq. Həftənin əvvəli pulu gələcək.

QADIN. Alınacaq ev tapılıb. İki otaqlıdır. Ortada geniş, böyük salonu. Otaqlardan biri mütləq mənimdir.

ANA. Çox yaxşı olar. Ayaq altında dolaşmazsan. Mənimotağıma da heç kim girə bilməz. Oğlum salonda yatar.

QADIN. Sizin əmək haqqınızı işıq, su, telefon, isitmə sistemi, ödənişlərlə bağlı boş-boş şeylərə xərcləyərik. Mənimki ilə də geyim-keçim, kef-damağ. Gül kimi yaşayarıq.

ANA. Aydın olmayan nə isə qaldı?

QADIN. Hələlik yox. Amma əminəm ki, təzə problemlərin çıxması üçün əlinizdən gələni edəcəksiniz.

ANA. Ümid edirəm ki, köməyini əsirgəməyəcəksən. Bu işdə təzəsən, amma əməlli-başlı təcrübə qazanmısan. Müzakirə etmədiyimiz heç nə qalmadı. Gedə bilərsən.

*(Qadın üst geyimini geyir, çantasını çiyninə atır.)*

ANA. Görürsən, az qalmışdı ki, yadımdan çıxsın. Gələn-gedən olub?

QADIN. Dostları. Bir də mənim iş yoldaşlarım. Bir də sizin işəyaramaz dayınız.

ANA. Sənin sifətsiz dayın gəlməmişdi?

QADIN. Hə, gəlmişdi, yaraşıqlı dayım. Hə, bir də sizin o xəyanətkar gəlmişdi. Heç adı da yadıma sala bilmirəm. Dedi-qodu edən lənətə gəlmiş hərif vardı, ha!.. Nə isə, bax, o gəlmişdi. *(Ziyarətçi bir az da əsəbləşərək, Qadına saatını göstərir.)* Gedirəm.

ANA. Get!

*(Qadın çıxır. Ana bayaqkı canavar görkəmindən çıxır, mehriban, ürəyiyumşaq, anlayışlı və sevilən bir görkəm alır. Çünki oğluna baxır.)*

ANA. Oğlum!.. Balam!.. *(Üzünü çevirir)* Elə ona görə bu vəziyyətə düşmüsən. Allah, o da pis günə qalsın! *(Oğluna tərəf çevrilir. Yenə də sevimlidir. Oğlu da elədir. Bir-birlərinə sevgi ilə baxırlar. Adam ağlamamaq üçün özünü güclə saxlayıb. Ana çamadanından böyük bir dəsmalı çıxarıb, yenə vanna otağına keçir. Ziyarətçi pərdənin arxasından çıxır. Ziyarətçi qapını açıb, çölə çıxır. Ana bir az sonra əlində dəsmal, gəlir. Axırıncı göz yaşlarını da dəsmala silib, dəsmalı büküb sıxır. Göz yaşları axır. Dəsmal qurusun deyə, uyğun olan yerə sərir.)* Axır ki, baş-başa qaldıq. O, laxtanı çıxardıb, yaxşılaşacaqsan. Bəlkə, bir il sonra, bəlkə, bir ay... Kim bilir, bəlkə, bir azdan... Niyə də olmasın? Əsas odur ki, inan. Mən sənin yanındayam, anan. Həmişə də olacağam. Sənin üçün yaşayacağam. İndi hər şeyə təzədən başlayacağıq. Elə bil ki, birinci çığırtını indi eləmisən. Səsin hələ də qulaqlarımdadır. Çimdirib, bələyib, qollarıma uzatmışdılar. Sən necə də gözəl körpə idin. Hər şeyə təzədən başlayırıq. Hətta danışacağıq. *(Ana çamadanından böyük bir karton çıxarır. Kartonun üzərində əlifbanın bütün hərfləri sıralanıb. Kartonu həm Adamın, həm də tamaşaçıların görəcəyi vəziyyətdə not molbertinə yerləşdirir.)* Görürsən? Mənə nəsə demək istəsən, göz qapaqlarını qırpıb-açarsan. Onda barmağını bir-bir bu hərflərin üzərinə toxunduracağam. Bax, eynən belə. Hansı hərfi seçsən, gözlərinlə işarə verəcəksən. Hər hərfdən sonra təzədən əvvələ qayıdacağam. Ta ki, deyəcəyin şey tamamlanana qədər. *(Adam "başa düşdüm" mənasında göz qapaqlarını örtür. Üstəlik, hələ kirpiklərini açıb-yummağa başlayır.)* Nə isə demək istəyirsən. Bax, o saat başa düşdüm. Gəl görək... *(Barmağını kartondakı hərflərin üstündən bir-bir aparmağa başlayır. Oğlu təsdiqlədikdən sonra, təzədən əvvələ qayıdır.)* S... ə... n... i... Səni s... e... v... i... r... ə... m... Səni sevirəm. Aha!.. A... n... a... Ana. *(Ana kartonu qoyub, oğlunu qucaqlayır. Bir müddət belə qalırlar. Ana oğlunu buraxıb, bir az uzaqlaşır.)* İstəyirəm, bir şey söz verəsən. Qətiyyən ağlamaq olmaz. Heç, ha, heç!.. *(Adam "yaxşı" mənasında kirpiklərini oynadır.)*

ZİYARƏTÇİ. *(Qapını bayırdan döyür.)* Kimsə var?

ANA. Kimdir?

ZİYARƏTÇİ. *(Qapını açıb, daxil olur)* Axşamınız xeyir!

ANA. Axşamın xeyir, oğul.

ZİYARƏTÇİ. Oğlunuzun dostuyam.

ANA. Sizi tanıya bilmədim.

ZİYARƏTÇİ. İllər insanları dəyişdirir. Mənə qucağınızda çox şirniyyat yedirmisiniz.

ANA. Yadıma gəlmədi. *(Yenə də şübhəlidir)* Belə dön, baxım.

ZİYARƏTÇİ. Olanları eşidib, şoka düşdüm. Gecənin yarısıdır deyib, gəlməkdən boyun qaçırmadım. Necə oldu? Nə baş verdi ki, bu vəziyyətə düşdü?

ANA. İçəriyə girmək üçün rüşvət vermisiniz.

ZİYARƏTÇİ. *(Təəccüblənibmiş kimi edir)* Hardan bildiniz? Yoxsa, siz də vermisiz?

ANA. Hə, mən də vermişəm. Üstəlik, dedim ki, oğlum içəridə yatır, buna rəğmən yenə də aldılar. Danışın.

ZİYARƏTÇİ. Oğlunuz məndən bir neçə yaş böyükdür. Onu çox istəyirdim. Yaxşı futbol oynayırdı. Həkim oldu. Ona kimlərin qızını alacaqdınız, amma gedib, bir kasıbın qismət oldu. Onların bədbəxtliyi atasını, yəni ərinizi çox pərişan elədi. Əriniz neçə yaşında öldü?

ANA. Yetmiş. Cavanların hamısına meydan oxuyurdu. Nə xərçəngi, nə ürək, nə də böyrək çatışmazlığı vardı. İbadət eləməzdi. Hacca getməmişdi, amma gizli mömin idi. İnsanlara yazığı gəlirdi. Xüsusilə, qadınlara. Deyirdi ki, bizim qədər çox kişi ölən ölkə yoxdur. Sonra əlavə edirdi: "Bu cür vəziyyətdə olan qadınlara arxa-dayaq olmaq lazımdır".

ZİYARƏTÇİ. Açığı, tam aydın olmadı.

ANA. Məndən başqa, üç qadına da baxırdı. Onları yedirirdi, içirirdi, doydururdu, qeydinə qalırdı. Çox tez getdi, çox. O, heç yanğın nərdivanından yıxılası adam idi?! Bilməyib, ayağı boşluğa düşüb. Axır vaxtlar gözü yaxşı seçmirdi.

ZİYARƏTÇİ. Evinizdə yanğın olmuşdu?

ANA. Baxdığı qadınların birinin evində idi. Qaçmaq istəyəndə... *(Şübhəli)* Çexolun içindəki... Nədir o elə?

ZİYARƏTÇİ. O, skripkadır. Bildiyiniz skripka.

ANA. Sizin skripka ilə nə işiniz var ki?

ZİYARƏTÇİ. Mən... Mən musiqiçiyəm. Skripkanın ustasıyam.

ANA. Çox gözəl. Sənət adamlarını çox istəyirəm. Həssas adamlardır. Bu istedadınıza görə, sizi də çox istədim. *(Şübhəli)* Xahiş eləsəm, kiçik bir konsert verə bilərsiniz?

ZİYARƏTÇİ. Nə vaxt?

ANA. İndi.

ZİYARƏTÇİ. Harda?

ANA. Burda.

ZİYARƏTÇİ. Burda?

ANA. Yoxsa, xəstəxana otaqlarında skripka çala bilmirsiniz?!

ZİYARƏTÇİ. Çala bilmərəm.

ANA. Niyə?

ZİYARƏTÇİ. Burda uşaqlıq dostum ümidsiz vəziyyətdə yatdığı halda, belə bir çıxış heç mənə yaraşar? Qəribə gəldi mənə.

ANA. Qəribə olası heç nə yoxdur. Siz də bilirsiniz ki, musiqi ruhun qidasıdır.

ZİYARƏTÇİ. O məsəl sağlam adamlar üçündür. Oğlunuz onsuz da həssasdır. Skripkanın səsi onu bir az da həssaslaşdıracaq və ağlayacaq. İstəyərsiniz ki, ağlasın?

ANA. Söhbət oğlumun pis olmamasından gedirsə, bütün fədakarlıqları edərəm. Skripkanızı çalmayın.

ZİYARƏTÇİ. Başa düşdüyünüz üçün minnətdaram.

ANA. Amma mənə deyə bilməzsiniz ki, skripkanı görəndə də ağlayacaq.

ZİYARƏTÇİ. Başa düşmədim.

ANA. Başa düşülməyəsi bir şey yoxdur. O çexolu açın və skripka olduğunu iddia etdiyiniz şeyi mənə göstərin.

ZİYARƏTÇİ. Bunun içində olan... Skripkadır.

ANA. Eləysə, ortada göstərməməyiniz üçün bir səbəb yoxdur.

ZİYARƏTÇİ. Mənə güvənmirsiniz. Çox pis oldum.

ANA. Göstərin!

ZİYARƏTÇİ. Mənim yalançı olduğuma eyham vurursunuz. Mən yalançı deyiləm.

ANA. Sübut edin.

ZİYARƏTÇİ. Mənə yalançı deyən sizsiniz. Əgər mən yalançıyamsa, gərək bunu siz sübut edəsiniz.

ANA. Asan işdir. Onu mənə verin.

ZİYARƏTÇİ. Niyə verirəm ki?

ANA. İçindən skripka çıxsa, yalançı olmadığınız aydın olacaq.

ZİYARƏTÇİ. Əlinizi çəkin! Mənə aid olana toxuna bilməzsiniz!

*(Ziyarətçi ilə Ana arasında təsəvvür edilməz mübahisə başlayır. Ana çexolu götürmək istəyir, Ziyarətçi isə çexoldan bərk-bərk yapışıb, buraxmır. Adam, elə bil, Anaya mane olmaq üçün qaş-gözünü oynadır. Ziyarətçi qarşıdurmada qalib gələrək, çexolu qadının əlindən alır.)*

ZİYARƏTÇİ. Yalançı olduğumu sübut edə bilmədiniz. Gördünüz ki, mən yalançı deyiləm.

ANA. Çıxın gedin. Əks təqdirdə, sizin yalançı olduğunuzu sübut eləməkdən qəti əl çəkməyəcəyəm.

ZİYARƏTÇİ. Yenə də sizi təbrik edirəm.

ANA. Siz mənim oğlumun dostu ola bilməzsiniz. Mən sizi tanımıram. Gedin.

ZİYARƏTÇİ. Görürsüz, oğlunuzu nə vəziyyətə saldınız?! Qorxuram ki, bir də cəhd etmək istəsəniz, ona çox böyük pislik eləmiş olarsınız. Siz bir anasınız, lakin bu hərəkətinizlə oğlunuzun əcəli olmağa doğru gedirsiniz. Nə qədər də hamı bir-birinin Əzrayılı olsa, yenə də işi həqiqi sahibinə həvalə etmək lazımdır.

*(Ana oğlunun yanına gedir, saçlarını oxşayıb, əzizləyir.)*

ANA. Qorxma, nə qədər ki, bu can bu bədəndədir, heç kim sənə toxuna bilməz.

ZİYARƏTÇİ. Ona heç kim toxunmaq istəmir ki... Bu, mənasız sayıqlamadır.

ANA. Yoxdur?

ZİYARƏTÇİ. Yox.

ANA. Var.

ZİYARƏTÇİ. Kim?

ANA. Sən.

ZİYARƏTÇİ. *(Sanki, təəccüblənib)* Mən?

ANA. Hə, sən. Səndən heç xoşum gəlmədi. Qəribə adamsan.

ZİYARƏTÇİ. Mənimlə kiminləsə səhv salırsınız.

ANA. Hələ xərifləməmişəm.

ZİYARƏTÇİ. Mən sizə xərif dedim? Bunu hardan çıxarırsınız?

ANA. Gözlədiyim kimi rəftar edirsən, kim olduğunu gizlədirsən.

ZİYARƏTÇİ. Mən bir musiqiçiyəm. Bununla da fəxr edirəm.

ANA. Deyə bilmədiyin sənətinlə fəxr eləmək heç yaxşı deyil.

ZİYARƏTÇİ. Dedim axı, musiqiçiyəm.

ANA. Sənətin yaxşısı-pisi yoxdur. Yağış duluzçular üçün pisdir, amma əkinçilər üçün yaxşı. İş işdir. De görək, sən kimsən? Nə işlə məşğul olursan?

ZİYARƏTÇİ. *(Müqavimət göstərməkdən imtina edir)* Çətin peşədir. Gecəsi-gündüzü yoxdur. Düz-əməlli ailə həyatımız yoxdur. Mən bazar günlərindən birində uşaqları yığıb, çöllərə getmək istəyirəm. Əslində, özüm tək çöllərə, dağlara gedirəm. Dənizlərə çıxıram, göy üzünə uçuram. Amma həmişə işimə görə. Əvvəllərdə bir az çətinlik çəkdim deməsəm, yalan olar. Amma getdikcə öyrəşdim. Çünki müqəddəs, əlçatmaz peşəm var. Silahın atılacaq tətiyinin istiqamətləndirilməsinin ləzzətini siz bilirsiniz? Ya da təyyarə motorunun

istədiyiniz vaxt xarab olmasındakı adrenalinli gözləntinin ləzzətini bilirsiniz? Heç bir bombanın tətiyini çəkən əl olmusunuzmu? Kralların, prezidentlərin, baş nazirlərin qabağınızda əyildiyini, əsdiklərini heç görmüsünüzmü? Ya da kralın əmri ilə başları kəsən cəllad olmusunuzmu? *(Ehtirasla)* Sənətimi çox sevirəm.

ANA. Başa düşdüm. Sən Əzrayılsan... Atanı da tanıyıram... Səni indi xatırladım. Atan da bacarıqlı Əzrayıl idi. Bu günlərdə o neyləyir?

ZİYARƏTÇİ. *(Bir müddət fikirləşir)* Təqaüdə çıxıb. Psixoloji vəziyyəti pozuldu, bir müddət ruhi dispanserlərdə yatıb. Reabilitasiya üçün xatirələrini yazmağı məsləhət görüldü. İndi xatirələrini yazır, hər şeydən qəhərlənir, ağlayır, nəvələri ilə vaxt keçirir. Peşmanlıq ərizəsi yazmağa belə, cəhd edib. Komitədən bəzi dostları mane oldular.

ANA. Kaş verəydi. Bəlkə, daxili rahatlığına çatar. Çox ürəkləri yandırıb, çox.

ZİYARƏTÇİ. Amma məncə, xatirələrini yazmaq üçün keçmişlə hesablaşmaq yaxşı müalicə üsulu deyil. Bircə təsəlli odur ki, kitab çox satılacaq. İndidən ingilis, fransız, alman dilinə tərcüməsi dəqiqləşib. Bu günlərdə ruslarla, yaponlar da maraqlanmağa başlayıblar. Yaponların təklifi maraqlıdır. Xatirələri qısametrajlı film formasında ekranlaşdırıb, milyonlarla nüsxəsini paylaşmaq istəyirlər. Ucuz məhsul bunu təmin edir. Amma amerikalılar diqqətçəkici, rəngli və asan oxunulacaq bir kitabın şəkillərlə bəzənildiyi halda, uşaqlara da gedib çatacağını deyirlər. Amma bizim hədəfimiz kitabın Çin dilinə tərcüməsidir. Çünki ora ayrı bir dünyadır. Əhali sayı da hardasa, dünya əhalisinin sayının üçdə biri qədərdir.

ANA. Kitabı necə adlandıracaq?

ZİYARƏTÇİ. “Əzrayılın xatirələri”.

ANA. Çox gözəl. Xeyli satılar. Məsələn, o saat mən birini alaram.

ZİYARƏTÇİ. Almayın. Mən birini imzaladıb, gətirərəm. Amma Çin dilinə tərcüməsi uzanır deyə, ailəlikcə əməlli başlı dilxor oluruq. Partiya rəsmiyyətini keçmək üçün, bilmirəm, neçəncisə plan mərhələsini gözləməyimiz lazımdır.

ANA. Mən elə hesab edirəm ki, bu günlərdə onların da başı özəlləşdirmə dəbinə qarışıb.

ZİYARƏTÇİ. Onsuz da yeganə ümidimiz budur. Bu qarışıqlıqda bizim xatirə kitabımıza da bir yer tapsalar, əla olar. Satışı dəhşətli olar. Nəslimiz-kökümüz yaşayar.

ANA. Şad oldum. Deyərsən ki, onu indidən təbrik edirəm.

ZİYARƏTÇİ. Bəs, özəlləşdirmə məsələsi alınmasa? Görmürsüz, tibb, təhsil və mədəniyyət sahələrində özəlləşdirmələr (mənimsəmələr), belə görünür ki, dünyanın başına təzə dərdlər gətirəcək. Balans pozulur. Qarışıqlıqlar çıxır. İrqçilik baş alıb gedir. Müharibələr başlayır.

ANA. Yeganə səbəb özəlləşdirmədir? (mənimsəmədir?)

ZİYARƏTÇİ. Şübhəsiz ki, yox. Amma xaosu sürətləndirdi. Qorxuram ki, belə getsə, Çindəki arzularımız alt-üst ola. Adamlar çox əzab çəkir. Tez-tez o ölkələrə gedirəm və pis oluram.

ANA. Onların dərdi sənə qalıb? Fikir vermə, kefini pozma. Çarə tapacaqlar.

ZİYARƏTÇİ. Deyəsən, çox danışdım. Dilim-damağım qurudu. Soyuducudan içmək üçün nə isə götürə bilərəm?

ANA. Varsa, götür.

*(Ziyarətçi soyuducuya tərəf gedir, mineral su açır.)*

ZİYARƏTÇİ. Siz də istəyirsiniz?

ANA. Təşəkkür edirəm.

ZİYARƏTÇİ. *(Mineral suyu şüşədən içərək)* Madam ki, kim olduğum da bilindi, eləysə, sözü çox uzatmağın mənası yoxdur.

ANA. Təxminən bilirəm, nə deyəcəksən, amma yenə də danış.

ZİYARƏTÇİ. Mənə bu vəzifə verilib. Amma sizin razılığınızı almaq məcburiyyətindəyəm.

ANA. Əvvəllər belə razılıq almırdınız. Hər şey sizin üçün heç idi, asan idi.

ZİYARƏTÇİ. Köhnə şamdanlar stəkan olub. Demakratiya, insan haqları deyəndə, qabağımızı bir qoşun sual çıxdı. Sizdən razılıq istəyirəm.

ANA. Allah tərəfi, o var. Necə fikirləşirsiniz ki, mən belə bir razılıq verə bilərəm?

ZİYARƏTÇİ. Amma ortada haqlı səbəblər var.

ANA. Sizin üçün haqlı səbəblər ola bilər. Bu isə mənə maraqlı deyil.

ZİYARƏTÇİ. Sizin üçün də haqlı tərəflər var.

ANA. Nədir?

ZİYARƏTÇİ. O qədər çoxdur ki... Hansını deyim?

ANA. Hamısını de. Görək, bu haqlı səbəblər nədir?!

ZİYARƏTÇİ. Xahiş edirəm, deyin görək, oğlunuzun sağalağa ümidi var?

ANA. Azca laxtadır. Çıxara bilsə, durub gəzəcək. Bu, haqlı səbəb deyil?

ZİYARƏTÇİ. Düzünü deyim ki, azca laxtadır, deməyinizə, laqeydliyinizə təəccübləndim. Bu qədər kiçik hesab etdiyiniz laxta oğlunuzun bu vəziyyətə düşməsinə səbəb olub.

ANA. Qaytarsa, o səbəb yox olar.

ZİYARƏT. Nə vaxt ?

ANA. Bilmirəm, amma qaytaracaq.

ZİYARƏTÇİ. Bir aya, bir ilə, beş ilə, nə vaxt?

ANA. Onu bilmirəm. Amma nə vaxt olur-olsun, qaytaracaq.

ZİYARƏTÇİ. Yəni deyirsiniz ki, gözləyərəm?!

ANA. Buna şübhən var? Niyə təəccüblənirsən? Təqaüdçü qadınam. Heç bir işim yoxdur. Oğlumdan başqa məni həyata bağlayan heç nə qalmayıb. Evim satılmaq üzrədir. O saat da burada ev alacağam. Balamın yanından ayrılmayacağam.

ZİYARƏTÇİ. Ev almağınız problemi həll edir?

ANA. Böyük hissəsini həll edir.

ZİYARƏTÇİ. Aldığınız aylıq təqaüd mənzilin hasarlarının belə xərcini ödəyə bilməz.

ANA. Gəlinin maaşı da var...

ZİYARƏTÇİ. Məsləhət görürəm ki, ona etibar etməyəsiniz. Çünki gənc qadındır.

ANA. Ona heç vaxt etibar eləməmişəm ki, bundan sonra da eləyim. Mənim rəhmətlik ərim "gələcəkdə lazım olar" deyib, torpaq sahəsi almışdı. Dənizin yaxınlığında min beş yüz kvadratmetrlik yerdir. Satışa qoyaram. Necə olsa, əməlli-başlı pul eləyəcək. O pulu faizə verərəm. Ən azı, ayda ikimizin aldığı pulun on qatı edər. Heç kimin puluna da ehtiyacım olmaz.

ZİYARƏTÇİ. Amma bu gün üçün faizin çox olması sizi çaşdırmasın. Sabah faizlər düşə bilər. Xərcləməyə dağ boyda pul ola, bəs eləməz. Onu da qoyun bir tərəfə. Bir dəqiqə belə bayıra çıxa bilməzsiniz. Bu uşağı necə qoyub gedəcəksiniz? Elə danışırsınız ki, elə bil, bilmirsiniz ki, adicə işıq pulunu ödəmək üçün nə qədər vaxt sərf eləmək lazımdır. Ən az bir günün yarısı. Yarım gün də telefon üçün... Ya da sudan ötrü...

ANA. Bu işlər üçün bir nəfərə beş-on qəpik versən, həll olar. Necə deyərlər, pulu verən, tütəyi çalar.

ZİYARƏTÇİ. Bəs, verdiyiniz pulu götürüb, qaçsalar?

ANA. Kim?

ZİYARƏTÇİ. İşıq pulunu verdiyiniz adam.

ANA. Etibar ediləsi bir nəfər taparam. Məsələn, alacağım mənzilin qapıçısı...

ZİYARƏTÇİ. Görürəm, qapıçılara yaman güvənirsiniz...

ANA. Deyəsən, bilmirsiniz ki, qapıçı olmaq üçün nə qədər əlavə pullar verilir. Qapıçı böyük bir xəzinədir.

ZİYARƏTÇİ. Hər şeyi fikirləşmisiniz.

ANA. Necə düşünməyim?! O, mənim oğlumdur.

ZİYARƏT. Nəzakət qaydalarını pozacağam... Neçə yaşınız var?

ANA. Yetmiş.

ZİYARƏTÇİ. Bəs, iyirmi il çəksə?.. Laxtanı çıxartması...

ANA. Doxsan yaşında olaram.

ZİYARƏTÇİ. O qədər yaşayacağınızdan necə əmin ola bilərsiniz?

ANA. Madam ki, ayağa qalxmağı üçün bir ümid var, yaşayaram.

ZİYARƏTÇİ. Bu qədər əmin olmayın.

ANA. *(Əsanı əlinə alır.)* Niyə?

ZİYARƏTÇİ. Əksinə, siz cavab verin görək, bu iş necə olacaq?

ANA. Səhərlər bir xiyar yeyirəm. Bir stəkan da limonlu su içirəm. Günorta bir kibrit qutusu böyüklüyündə pendir... Bir dənə alma. Balaca qatıq. Axşamtərəfi bir boşqab çoban salatı... Amma qətiyyən yağla yox. Axşamlar mövsümünə görə, bir meyvə. Bir stəkan da süd. Qorxulu filmə baxmıram. Avtobusa minmirəm. Siqaret çəkmirəm. Növbə gözləmirəm. Üç ağ şeyi qətiyyən yemirəm. Üç ağ deyəndə, niyə belə təəccübləndiniz? Sizin işinizi asanlaşdıran üç bəyaz şey un, şəkər tozu, bir də duzdur. Tez-tez də gəzirəm. Uzun yaşamağım üçün bir maneə var?

ZİYARƏTÇİ. Aydın olur ki, özünüzü belə bir fədakarlığa hazırlamısınız.

ANA. "Fədakarlıq" sözündən yersiz istifadə edirsən. Fədakarlıq özündən imtina etməkdir. Mənsə, anayam... Mənim elədiyim fədakarlıq yox, vəzifədir.

ZİYARƏTÇİ. Bəs, mən neyləyəcəyəm? Mənə yazığınız gəlmir? Məni də bir ana doğmayıb?

ANA. İndi bunun əlaqəsi var ki?!

ZİYARƏTÇİ. Vəzifəmi yerinə yetirə bilməyəcəyəm! Çünki razılıq vermirsiniz!

ANA. Sözü uzatmağın mənası yoxdur. Daha gedə bilərsən.

ZİYARƏTÇİ. Gedim, hə?! Onda yüksələ bilmərəm. Siz bir anasınız. Sizi bütün uşaqlarınızın vəziyyəti maraqlandırmalıdır.

ANA. Mən də ona görə burdayam.

ZİYARƏTÇİ. Ana olmaq asandır? Ana olmaq başqa şeydir. Boş-boşuna deyiblər ki: "ağlayarsa, anam ağlayar, qalanları yalandan ağlayar"? Yalnız dünyanın bütün uşaqlarını qucağınıza ala bilməyi bacarsanız həqiqi ana ola bilərsiniz. Ana doğub ortalığa atan deyil, qayğısını çəkib böyüdən, himayə edib, yaşadandır... Hamı ana ola bilər?

ANA. Yalnız mənim deyə biləcəyim sözləri deyirsən...

ZİYARƏTÇİ. Xahiş edirəm, icazə verin, sözümü tamamlayım. Mən də sizin övladınız hesab olunuram. Sizə "anacan" deməmək üçün özümü güclə saxlayıram. Ana! Ana! Anacan!

ANA. Düşüklük eləmə!

ZİYARƏTÇİ. Üzr istəyirəm. Mən başqa şey demək istəyirəm. Bəlkə də, məni başa düşmək istəmirsiniz.

ANA. Sən ucalacaqsan, yüksələcəksən deyə, mənə deyə bilməzsən ki, balandan əl çək. Çıx get burdan! Zir-zibilini yığ və get. Başa düşmürsən, daha get?!

ZİYARƏTÇİ. Onda, icazə verin, onun əvəzinə sizi aparım.

ANA. Dediyin heç mümkün olan işdir?

ZİYARƏT. Nə oldu, bəs, oğlunuz üçün hər şey eləyərdiniz?! Deməli, canınızı qoruya bilirsiniz.

ANA. Mən getsəm, arvadı ilə bir qalar. Açığı, arvadına da etibar eləmirəm. Qoyub gedəndə, bu yazığa kim baxacaq? Ən yaxşısı, sən get!

ZİYARƏTÇİ. *(Əsəbləşir)* Yola gətirə bilmədiyimə görə, məcbur edərəm. Sizi xəbərdar edirəm! Məcbur edəcəyəm!

ANA. *(Əsasını qılınc kimi qaldırır)* Cəhd etməyini tövsiyə eləmirəm!

ZİYARƏTÇİ. *(Dəryazını çıxardır)* Məni əsəbləşdirirsiz! Özümdən böyüyə əl qaldırmağa məcbur olduğum üçün təəssüf edirəm. Allahım, bağışla məni!

*(Bir-birinin ətrafına fırlanırlar, çatışmazlıqlarını, zəif nöqtələrini tutmağa çalışırlar. Adam olduqca həyəcanlıdır. Ziyarətçi dəryazını atır, Ana məharətlə müdafiə olunub, yayınır. Ziyarətçi yenə hücum edir, Ana yenə müdafiə olunur.)*

ANA. Görürsən, müdafiənin bütün fəndlərini bilirəm. Boş yerə özünü yorma. Uduzmamış get, igidlik səndə qalsın.

ZİYARƏTÇİ. Bu günə kimi heç vaxt uduzmamışam. Bir də ki, döyüş ancaq müdafiədən ibarət deyil.

ANA. Kişiliyin onda doqquzu qaçmaqdır. Sən qaç da demirəm. Sağollaş və get!

*(Ziyarətçi hiddətli qəzəblə təzədən zərbə endirir,*
*Ana məharətlə müdafiə olunur.)*

ZİYARƏTÇİ. Mən ancaq hücum etməyə və nəticəsini görməyə öyrəşmişəm. Bu isə müdafiə olunma kimi mənasız yerə vaxt itirməyin qarşısını alır. Mənim qədər təcrübəli ola bilməzsən. Bu işdən əl çək. Nə qədər ki, gec deyil, əl çək.

*(Ziyarətçi böyük bir güclə bildiyi bütün fəndləri göstərərək, dəryazı yüksək sürətlə bir əlindən digərinə atmağa başlayır, yenidən hücum edir. Ana bir öküz güləşçisi kimi xəfifcə yana çəkilərək, əlindəki əsanın köməyi ilə gəldiyi tərəfə göndərir. Ziyarətçi qarşıdakı divara çırpılıb karıxır. Ana ildırım kimi Ziyarətçinin arxasına yaxınlaşır, geyiminin boğazından tutub, üzüaşağı yerə yatdırır. Əlindən basıb, dəryazı buraxmağına müvəffəq olur, ayağı ilə dəryazı uzaqlaşdırır.)*

ANA. Səni xəbərdar eləmişdim.

ZİYARƏTÇİ. Mənə neyləyəcəksən?

ANA. Neyləməyimi istəyirsən?

ZİYARƏTÇİ. Şərəfli ölümü seçirəm.

ANA. Ölüm ölümdür. Yox olmaqdır. Yox eləməksə bir anaya yaraşmaz. Nə qədər ki, fikrimi dəyişməmişəm, dur get! *(Dəryazı əlinə alır. Ziyarətçi böyük bir əziklik, sarsıntı içində qalxır.)* Atana salamımı çatdırarsan. Kitabı üçün indidən təbrik edirəm! Əgər imzalayıb, göndərsə, sevə-sevə oxuyacağam. Arzu və ümid edirəm ki, çox satar.

*(Telefon çalır. Ana əlindəki dəryazı qoymayıb, dəstəyi qaldırır.)*

ANA. Alo...

QADIN. *(Həyəcanlı səslə)* Mənəm...

ANA. Xeyir olar? Nəsə olub? Evə getmədin?

QADIN. Getdim, amma geri qayıtdım. Sizdən üzr istəmək üçün...

ANA. Hardan zəng vurursan?

QADIN. Xəstəxananın girişindən. Hə... Ərimə bir yerdə baxacağıq. Laxtanı çıxarana qədər...

ANA. Aydındır... Sən də məni bağışla. İndi get, dincəl. *(Dəstəyi asır. Ziyarətçiyə)* Niyə hələ də burdasan?

ZİYARƏTÇİ. Alətimi verməyəcəksiniz?

ANA. Yox! Çıx və get!

ZİYARƏTÇİ. Ümid edirəm ki, gələcəkdə bir gün qarşılaşacağıq. Əgər vəzifəmdə qalsam... Axırıncı dəfə bir şey deyə bilərəm?

ANA. De.

ZİYARƏTÇİ. İndi nə desəm, mənası yoxdur. Yaşayıb görəcəksiniz. Necə deyərlər, yaşayan görər. Bunu heç vaxt yadınızdan çıxartmayın. İnsan əti dözümlüdür.

ANA. Amma övlad əti zərifdir!

ZİYARƏTÇİ. Bu, nə sevgidir? Bu, nə qüvvədir, İlahi? Bu, bəlkə də, hardasa, cənnətin yer üzündə qurulmasını təmin edəcək... Kim bilir?! *(Ziyarətçi qapını açıb gedir.)*

ANA. Bu işi həll elədik. Bəs, bayırdakı əzrayıllar nə olacaq? *(Adam göz qapaqlarını açıb-yumur. Ana kortona yaxınlaşır.)* De, əzizim... Hə... M... ə... n... ə... n... a... ğ... ı... l... d... a... n... ı... ş... a... r... s... a... n? Mənə nağıl danışarsan? Bunun şirin dilini yesinlər. Sənə danışmayıb, kimə danışacağam?! Həmişə danışacağam. *(Radionu yandırır, oğlunun yanındakı kresloda oturur.)*

*(Qadın da içəri girib, ərinin yanında oturur. Əlini tutur, oxşayır. Sakitcə qulaq asır.)*

ANA. Biri vardı, biri yoxdu. Keçmiş zaman içində... Xəlbir saman içində... Mən anamın beşiyini ciyildədə-ciyildədə yüyrəyəndə... Dəvələr dəllal, birələr bərbərikən... Ölkələrin çoxunda... Zalımlar hökmranlıq edəndə... Ortalıqda özünü əzrayıl hesab edənlər gəzirmişlər... Göy... Əkini... Biçərmiş... Kimi... Devrilmiş... Cansız... Cavan... Bədənləri... Görməmək... Üçün... Televizorlarını... Söndürürmüşlər... İnsanlar... Qəzətlərə baxıb, jurnalları oxuya bilmirmişlər. İlk olaraq, vəziyyəti analar hiss ediblər... Əvvəlcə bir-bir. Sonra hamısı birlikdə yanlarına ərlərini də alıb, küçələrə çıxmağa başlayıblar...

*(Artıq Ananın səsi eşidilməz olur. Ana nağılını səssizcə danışanda...)*

**S O N**

*Birinci yazılış: 19 İyul 1994, İstanbul*
*İkinci yazılış: 26 Yanvar 1996, İstanbul*

*Tərcümə tarixi:*
*11-16 İyun 2020*
*Şəki*

**Azərbaycan dilinə tərcümə edən:**
**ELVİN NURİ**